# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

19 mart 2026-cı il, cümə axşamı
№ 051 (7118)
Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Prezident və birinci xanım Xocavəndin Xanoba kəndində...

## İlham Əliyev: Altıncı ildir ki, Novruz bayramını Qarabağda qeyd edirəm




Bax səh. 2

# Qlobal geosiyasətdə paradiqma dəyişikliyi...

Bax səh. 2

## Yaxın Şərqdəki vəziyyət Bakı ilə müzakirə olunur

Son vaxtlarda Yaxın Şərq mövzusu, o cümlədən də fevralın 28-dən başlayan İran - Amerika Birləşmiş Ştatları (ABŞ) - İsrail müharibəsi dünya gündəliyinin mərkəzinə keçib. Diqqətçəkən mühüm məqamlardan biri isə ondan ibarətdir ki, müxtəlif ölkələrin və beynəlxalq təşkilatların rəsmi təmsilçiləri Yaxın Şərqlə bağlı müzakirələrdə Azərbaycanla, şəxsən Prezident İlham Əliyevlə məsləhətləşmələr aparmağa, Onun münasibətini öyrənməyə böyük önəm verirlər. Bu günlərdə dünyanın müxtəlif paytaxtlarından Bakıya, Prezident İlham Əliyevə edilən çoxsaylı telefon zəngləri bunu bir daha təsdiqləyir.

Növbəti belə telefon danışığı martın 17-də Prezident İlham Əliyevlə Almaniya Federativ Respublikasının Kansleri Fridrix Merts arasında olub. Telefon söhbəti zamanı Yaxın Şərqdə davam edən gərginlikdən narahatlıq ifadə olunub, onun Cənubi Qafqaz regionuna mümkün təsirləri barədə fikir mübadiləsi aparılıb.

Ayrı-ayrı ölkələrin və beynəlxalq təşkilatların yüksəksəviyyəli rəsmilərinin böyük aktuallıq daşıyan qlobal məsələlərin, o cümlədən də Yaxın Şərqdə müşahidə edilən proseslərin müzakirələrinin Prezident İlham Əliyevlə aparmağa ehtiyac duymaları heç də təsadüfi deyil. Bu, ilk növbədə dövlətimizin başçısının qlobal liderlik keyfiyyətləri nümayiş etdirməsi və Azərbaycanın beynəlxalq nüfuzunun artması reallığının əyani təsdiqidir. Prezident İlham Əliyev milli səviyyədə xalqa arxalanan, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam təmin edən fateh Lider kimi qəbul olunur.

- Ancaq İlham Əliyevin çoxşaxəli fəaliyyəti yalnız Azərbaycan miqyası ilə məhdudlaşmır, həm də qlobal məzmun kəsb edir. Artıq müxtəlif beynəlxalq platformalarda, beyin mərkəzlərində dünyada tanınan nüfuzlu siyasətçilər, ekspertlər tərəfindən Prezident İlham Əliyev qlobal proseslərdə...

Bax səh. 2

## İrəvan Bakının daha bir tələbini yerinə yetirir



Bax səh. 3

### Orta aylıq pensiyanın məbləği 593 manata çatıb

Bax səh. 5

### Daha etibarlı və təhlükəsiz...

Bax səh. 5

### Sülh naminə...

Bax səh. 6

### İranın parlament sədrinə sui-qəsd...

Bax səh. 6

### Pakistan Əfqanıstanın hücumlarına cavab verir...

Bax səh. 7

## Tehran Naxçıvana dron hücumunu araşdırmalıdır

Yaxın Şərq regionunda, xüsusilə İranda baş verən hadisələr Azərbaycanın diqqət mərkəzindədir. Mövcud vəziyyət bütün region ölkələri üçün riskləri artırır. Çünki münaqişənin genişlənməsi qonşu ölkələr üçün təhlükələri istisna etmir. Bu yaxınlarda İran ərazisindən Naxçıvan Muxtar Respublikasında mülki obyektlərə dron hücumunun edilməsi qonşu ölkələrin təhdidlərdən sığortalanmadığını göstərdi. Azərbaycan proseslərlə bağlı müxtəlif ölkələrlə, o cümlədən region dövlətlərilə sıx təmasdadır.

Yeri gəlmişkən, martın 17-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla İran İslam Respublikasının xarici işlər naziri Seyid Abbas Əraqçi arasında telefon danışığı baş tutub. Telefon danışığı zamanı regional vəziyyət və ikitərəfli əlaqələr müzakirə olunub. Ceyhun Bayramov İran ərazisindən Naxçıvan Muxtar Respublikasına dron hücumlarından sonra verilmiş vədə uyğun olaraq, İran tərəfindən araşdırmaların tamamlanmasının vacibliyini diqqətə çatdırıb. Ümumilikdə, aparılan müharibə zamanı mülki obyektlərin hədəf alınmamasının zəruriliyi, bölgədə hərbi eskalasiyaya qısa müddət ərzində son qoyulmasının və mövcud çətinliklərin danışıqlar yolu ilə həll edilməsinin tərəfdarı olduğumuz vurğulanıb. Nazirlər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Məlumdur ki, İranın Prezidenti Azərbaycanın dövlət başçısı ilə telefon danışığında Naxçıvana dron hücumunun ölkəsi tərəfindən törədilmədiyini bildirmişdi. Eyni mövqeni İranın XİN başçısı və Silahlı Qüvvələrin komandanlığı da ifadə etmişdi. Belə olan təqdirdə, Azərbaycanın mövqeyi bundan ibarətdir ki, insident ciddi şəkildə araşdırılmalı, ölkəmizə qarşı bu təxribatı törədənlər tapılıb cəzalandırılmalıdır. Azərbaycan rəsmi Tehrandan...

Bax səh. 3



## “Ərəb NATO-su” yaranır?

Bax səh. 7

## Korrupsioner Okampodan yeni “kampaniya”...



Bax səh. 4

# Prezident və birinci xanım Xocavəndin Xanoba kəndində...

## İlham Əliyev: Altıncı ildir ki, Novruz bayramını Qarabağda qeyd edirəm







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 18-də Xocavənd rayonunun Xanoba kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma kənddə həyata keçirilmiş və nəzərdə tutulan işlər barədə məlumat verdi.

Xanoba kəndi Xocavənd rayonunun eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 15 kilometr cənub-qərbdə yerləşir. Bura Qarabağ xanlarına məxsus olmuş yaşayış məntəqəsidir. İşğaldan əvvəl kənddə orta məktəb, klub, kitabxana, tibb məntəqəsi və rabitə şöbəsi fəaliyyət göstərib. Kənd Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ildə həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

Kənddə mövcud fərdi evlərin sayı 153-dür. Onlardan da 21-i yararsız, 132-si isə qismən yararlıdır. Qismən yararlı evlərdən 26-sı artıq istismara hazırdır. Bu ilin sonunadək daha 106 ev hazır olacaq.

Bir neçə gün əvvəl ilkin mərhələdə kəndə 25 ailə - 114 nəfər qayıdıb. Oktyabradək daha 107 ailənin köçürülməsi planlaşdırılır. Ümumilikdə, ötən ilin oktyabrından Xocavənd rayonunun 6 yaşayış məntəqəsinə 1818 nəfər - 441 ailə qayıdıb.

Xanoba kəndində sosial məsələlərin həlli istiqamətində bir sıra işlər görülüb. Kənddəki mövcud 2 transformator məntəqəsi, elektrik və qaz xətləri bərpa olunub, eyni zamanda, yeni elektrik, qaz və optik xətlər çəkilib, subartezian quyusunda və nasos stansiyasında təmir işləri aparılıb.

***

Sonra dövlətimizin başçısı və birinci xanım kəndə köçmüş Bəybala Qasımovun evində olublar.

***

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xanobaya qayıdan kənd sakinləri ilə görüşüblər.

Dövlətimizin başçısı Xanoba kəndində sakinlərlə birlikdə Novruz tonqalını alovlandırıb.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kənd sakinləri ilə söhbət ediblər.

Prezident İlham Əliyev deyib: Artıq iki ildir ki, bu diyar işğalçılardan azad olunub, Xanoba kəndi 2023-cü ilin sentyabr ayında işğaldan azad edilmişdir və bundan sonra artıq bərpa işləri başlanmışdır, evlər yenidən tikildi-quruldu, bütün şərait yaradıldı. Yəni bu şanlı Zəfərimiz artıq neçə ildir bizim qürur mənbəyimizdir. Mən altıncı ildir ki, Novruz bayramını Qarabağda qeyd edirəm. Birinci dəfə 2021-ci ildə, ondan sonra da bütün illər boyu Novruz ərəfəsində Qarabağdayam və Novruz tonqalını da Qarabağda birlikdə qalayırıq. Bu, böyük xoşbəxtlikdir.

Biz öz milli qürurumuzu bərpa etdik, ədaləti, ərazi bütövlüyümüzü bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Silahlı Qüvvələrimiz həm 2020-ci ildə, həm 2023-cü ildə böyük qəhrəmanlıq göstərmişdir. Bunun nəticəsində biz bu gün bu torpaqlardayıq və biz bu torpaqların əsl sahibləriyik. Çünki Ermənistan buranı viran qoymuşdu. Yəni bütün kənd, qəsəbə, şəhər - hamısını dağıtmışdı. Burada bir neçə daxma tipli ev qalmışdı, amma indi baxın. Ağdam, Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı nə gündə idi, yerlə-yeksan etmişdilər. Xaricdən gələn erməniləri Laçında, Kəlbəcərdə qanunsuz məskunlaşdırmışdılar, ora da bərbad vəziyyətdə idi. Yəni hamısını biz yenidən qururuq. Cəmi 5-6 il ərzində Qarabağda və Şərqi Zəngəzurda 80 mindən çox insan yaşayır, çalışır, təhsil alır. Demək olar ki, hər ay, bəlkə də hər həftə keçmiş köçkünlər "Böyük Qayıdış" Proqramı çərçivəsində öz doğma diyarlarına qayıdırlar".







# Yaxın Şərqdəki vəziyyət Bakı ilə müzakirə olunur



Son vaxtlarda Yaxın Şərq mövzusu, o cümlədən də fevralın 28-dən başlayan İran - Amerika Birləşmiş Ştatları (ABŞ) - İsrail müharibəsi dünya gündəliyinin mərkəzinə keçib. Diqqətçəkən mühüm məqamlardan biri isə ondan ibarətdir ki, müxtəlif ölkələrin və beynəlxalq təşkilatların rəsmi təmsilçiləri Yaxın Şərqlə bağlı müzakirələrdə Azərbaycanla, şəxsən Prezident İlham Əliyevlə məsləhətləşmələr aparmağa, Onun münasibətini öyrənməyə böyük önəm verirlər. Bu günlərdə dünyanın müxtəlif paytaxtlarından Bakıya, Prezident İlham Əliyevə edilən çoxsaylı telefon zəngləri bunu bir daha təsdiqləyir.

Növbəti belə telefon danışığı martın 17-də Prezident İlham Əliyevlə Almaniya Federativ Respublikasının Kansleri Fridrix Merts arasında olub. Telefon söhbəti zamanı Yaxın Şərqdə davam edən gərginlikdən narahatlıq ifadə olunub, onun Cənubi Qafqaz regionuna mümkün təsirləri barədə fikir mübadiləsi aparılıb.

**İlham Əliyevin qlobal liderliyi - Azərbaycanın artan beynəlxalq nüfuzu**

Ayrı-ayrı ölkələrin və beynəlxalq təşkilatların yüksəksəviyyəli rəsmilərinin böyük aktuallıq daşıyan qlobal məsələlərin, o cümlədən də Yaxın Şərqdə müşahidə edilən proseslərin müzakirələrinin Prezident İlham Əliyevlə aparmağa ehtiyac duymaları heç də təsadüfi deyil. Bu, ilk növbədə dövlətimizin başçısının qlobal liderlik keyfiyyətləri nümayiş etdirməsi və Azərbaycanın beynəlxalq nüfuzunun artması reallığının əyani təsdiqidir. Prezident İlham Əliyev milli səviyyədə xalqa arxalanan, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam təmin edən fateh Lider kimi qəbul olunur.

- Ancaq İlham Əliyevin çoxşaxəli fəaliyyəti yalnız Azərbaycan miqyası ilə məhdudlaşmır, həm də qlobal məzmun kəsb edir. Artıq müxtəlif beynəlxalq platformalarda, beyin mərkəzlərində dünyada tanınan nüfuzlu siyasətçilər, ekspertlər tərəfindən Prezident İlham Əliyev qlobal proseslərdə fəal iştirak edən və həmişə də ədalət, çoxtərəflilik, beynəlxalq hüquq mövqeyindən çıxış edən lider kimi təqdim olunur. Bu günlərdə Azərbaycan Prezidentinin qlobal liderliyini təsdiqləyən daha bir xəbər gəlib. Söhbət ABŞ-ın milli təhlükəsizlik üzrə aparıcı eksperti Ceyms Cey Karafanonun "X"dəki hesabında etdiyi paylaşımdan gedir. Həmin paylaşımda bildirilir ki, Azərbaycan Prezidenti İlham Əliyev dünyanın ən nüfuzlu 15 liderindən biridir.

- Azərbaycan Prezidentinin qlobal səviyyəli lider kimi təqdim olunması bilavasitə Onun fəaliyyətindən qaynaqlanır. Hazırda dünyada selektiv yanaşmaların önə keçdiyi müşahidə edilir. Biz gücün nümayişini izləyirik. Prezident İlham Əliyevin isə dünya nizamı ilə baxışları tamam fərqli və aydındır. Dövlətimizin başçısı müxtəlif auditoriyalarda daim onu təşviq edir ki, bütün yanaşmalarda beynəlxalq hüquq təmin edilməlidir. Prezident İlham Əliyev Birləşmiş Millətlər Təşkilatında (BMT) islahatların aparılmasının zəruriliyini dəfələrlə gündəmə gətirib. Onun möhkəm qənaətinə görə BMT TŞ mütləq qaydada genişləndirilməlidir.

Azərbaycan Prezidentinin qlobal liderlik keyfiyyətlərindən bəhs edərkən Onun beynəlxalq həmrəyliyin möhkəmlənməsinə verdiyi davamlı töhfələrin önəmini xüsusi qeyd edə bilərik. Məsələn, qlobal səhiyyə böhranı dövründə respublikamız özü də pandemiya ilə mübarizədə olmasına, Vətən müharibəsi aparmasına baxmayaraq, ehtiyacı olan digər dövlətləri də unutmayıb. Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatının (QH) üzvləri olmaqla, 80-dən çox ölkəyə koronavirusla bağlı maliyyə və humanitar yardım göstərib, həmçinin Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları dəyərində könüllü maliyyə töhfəsi verib.

**Azərbaycanın xoş mərama əsaslanan Yaxın Şərq siyasəti**

Azərbaycanın xarici siasəti çoxvektorludur və burada regional əlaqələrin inkişafına xüsusi önəm verilir. Prezident İlham Əliyev müxtəlif auditoriyalar qarşısındakı çıxışlarında dəfələrlə bildirib ki, heç bir ölkə qonşulardan təcrid olunmuş şəkildə inkişaf edə bilməz. Dövlətimizin başçısı XIII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında bu tezisə bir daha diqqət çəkərək vurğulayıb: "Regional təhlükəsizlik məsələsi Azərbaycan üçün hər zaman birmənalı olaraq bir nömrəli məsələ olub".

Respublikamızın Yaxın Şərq siyasəti də sırf xoş mərama əsaslanır. Bəhs olunan regionun ölkələrinin böyük əksəriyyəti müsəlman dövlətləridir. Beləliklə, bizim cəmiyyətlərimizi, xalqlarımızı ilk növbədə tarix və mənəvi tellər bağlayır. Azərbaycanda İslam sivilizasiyasının qədim izləri var. Tarixi abidələr, ənənələr qorunaraq daha da zənginləşdirilir. Azərbaycan xalqı İslam etiqadı ilə qürur duyur. Eyni zamanda, ölkəmiz Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq dünyada İslam həmrəyliyinin möhkəmlənməsinə davamlı töhfələr verir. Bunun təzahürü olaraq ölkəmizdə İslam Həmrəyliyi Oyunları böyük uğurla baş tutub. Respublikamız sıralarında çoxlu sayda müsəlman dövlətinin birləşdiyi Qoşulmama Hərəkatında (QH) yüksək fəallıq nümayiş etdirir. Ölkəmizin 2024-cü il dekabrın 19-da D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv qəbul edilməsi ilə Azərbaycanın Yaxın Şərq siyasətində yeni bir səhifə açılıb. Misirin paytaxtı Qahirə şəhərində təşkilatın XI Sammiti zamanı respublikamızın yekdilliklə D-8-in üzvlüyünə qəbul edilıməsi İslam səkkizliyinin tarixində ilk genişlənmə idi. D-8-in ilk genişlənməsinin məhz Azərbaycanla edilməsi tam məntiqlidir. Bu qərar üzv ölkələr tərəfindən Azərbaycana göstərilən hörmətin ifadəsidir.

Son vaxtlarda Yaxın Şərqdə cərəyan edən ziddiyyətli proseslər fonunda ölkəmiz region ölkələri ilə əməkdaşlığını və zəruri hallarda dəstəyini davam etdirir. Xatırladaq ki, Azərbaycan Suriyada məlum hakimiyyət dəyişikliyindən sonra bu ölkəyə yardım əli uzadan ilk ölkələr sırasında yer aldı. Hazırda respublikamız Suriyanın enerji təchizatında pay sahibidir. Ölkəmiz həmçinin çətin dönəmdən keçən İrana mənəvi-siyasi-humanitar dəstəyini davam etdirir.

*Mübariz ABDULLAYEV*

# Qlobal geosiyasətdə paradiqma dəyişikliyi...

Prezident İlham Əliyev XIII Qlobal Bakı Forumunda çıxışı zamanı qeyd etdi ki, təhlükəsizlik əsas amildir və biz səylərimizi məhz bu istiqamətdə birləşdirməliyik.

Bu, çağdaş beynəlxalq münasibətlər sistemində mövcud reallığın konseptual ifadəsi olmaqla bərabər, qlobal geosiyasi transformasiyanın və paradiqma dəyişikliyinin baş verdiyini göstərir.

**Köhnə-yeni prioritetlər: enerji, ərzaq, kiber və logistika təhlükəsizliyi**

II Dünya müharibəsindən sonra formalaşan dünya düzənində əsas strateji prioritetlər bu cür idi: bərpa, inteqrasiya və inkişaf. Hər üç anlayış daha çox iqtisadi məzmun kəsb edirdi. Lakin müasir dövrdə beynəlxalq sistem artıq klassik liberal nizamın prinsipləri ilə deyil, daha çox təhlükəsizlik yönümlü realist yanaşmalarla xarakterizə olunur. Bu isə dövlətlərin davranış modelləri, prioritetləri və strateji qərarlarında köklü dəyişikliklərə səbəb olur.

XXI əsrin üçüncü onilliyində baş verənlər, xüsusilə də Yaxın Şərq və Şərqi Avropada şiddətli hərbi eskalasiya sabitlik, təhlükəsizlik və müdafiə anlayışlarını yenidən ön plana çıxarıb. Artıq "Təhlükəsizlik olmadan davamlı inkişafı təmin etmək mümkün deyil" tezisi daha aktualdır.

Təhlükəsizlik anlayışı klassik hərbi-siyasi çərçivədən çıxaraq çoxölçülü xarakter alıb. Hazırda "qlobal təhlükəsizlik" məfhumu öz yerini milli və regional sabitlik kateqoriyalarına verib ki, burada enerji, ərzaq, kiber və logistika təhlükəsizliyi dominantdır.

**Transformasiya - "yumşaq güc"dən "sərt güc"ə...**

Yeni dünya nizamına keçid prosesində baş verən digər paradiqma dəyişikliyi "yumşaq güc"dən ("soft power") növbəti dəfə "sərt güc"ə ("hard power") transformasiyadır. Geostrateji mərkəzlər arasında rəqabətin kəskinləşməsi, yeni risk və təhdidlərin meydana çıxması ilə kollektiv təhlükəsizlik anlayışının arxa plana keçdiyi indiki şəraitdə dövlətlər öz milli təhlükəsizlik strategiyalarına yenidən baxmaqla müdafiə potensialının genişləndirilməsini priotetə çevirməkdədirlər.

**Azərbaycan nümunəsi: sabitlik siyasi fenomen kimi...**

Hazırda daxili sabitlik dövlət müstəqilliyi və suverenlik anlayışları ilə eyni siyasi dəyərə malikdir. Cənubi Qafqazda təhlükəsizlik adasına çevrilən Azərbaycanın sabitlik modeli yeni siyasi fenomendir. Paralel olaraq ölkəmizin konstruktiv siyasəti, çoxkombinasiyalı diplomatik - strateji gedişləri, etimad quruculuğuna hədəflənmiş sülh diplomatiyası sayəsində bölgədə yeni təhlükəsizlik mühiti formalaşır. Avrasiyanın "heartland" nöqtələrindən hesab olunan Cənubi Qafqazın bir əsrlik geosiyasi arxitekturası dəyişir, uzun illər hərbi-siyasi toqquşma məkanı olan, gərginliyin və narahatlığın hökm sürdüyü əməkdaşlıq, inteqrasiya üçün yeni imkanlar meydana çıxır. Azərbaycan geosiyasi mənzərəni ədavətdən ədalətə (hərbi-strateji qarşıdurmadan ədalətli sülhə) doğru dəyişməklə bir regionun timsalında qlobal sabitlik modeli yaradıb.



*Nurlan QƏLƏNDƏRLİ,*
*Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri*

# Tehran Naxçıvana dron hücumunu araşdırmalıdır

Yaxın Şərq regionunda, xüsusilə İranda baş verən hadisələr Azərbaycanın diqqət mərkəzindədir. Mövcud vəziyyət bütün region ölkələri üçün riskləri artırır. Çünki münaqişənin genişlənməsi qonşu ölkələr üçün təhlükələri istisna etmir. Bu yaxınlarda İran ərazisindən Naxçıvan Muxtar Respublikasında mülki obyektlərə dron hücumunun edilməsi qonşu ölkələrin təhdidlərdən sığortalanmadığını göstərdi. Azərbaycan proseslərlə bağlı müxtəlif ölkələrlə, o cümlədən region dövlətləri ilə sıx təmasdadır.

## Ceyhun Bayramov iranlı həmkarına məsələnin vacibliyini xatırladıb

Yeri gəlmişkən, martın 17-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla İran İslam Respublikasının xarici işlər naziri Seyid Abbas Əraqçi arasında telefon danışığı baş tutub. Telefon danışığı zamanı regional vəziyyət və ikitərəfli əlaqələr müzakirə olunub. Ceyhun Bayramov İran ərazisindən Naxçıvan Muxtar Respublikasına dron hücumlarından sonra verilmiş vədə uyğun olaraq, İran tərəfindən araşdırmaların tamamlanmasının vacibliyini diqqətə çatdırıb. Ümumilikdə, aparılan müharibə zamanı mülki obyektlərin hədəf alınmamasının zəruriliyi, bölgədə hərbi eskalasiyaya qısa müddət ərzində son qoyulmasının və mövcud çətinliklərin danışıqlar yolu ilə həll edilməsinin tərəfdarı olduğumuz vurğulanıb. Nazirlər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Məlumdur ki, İranın Prezidenti Azərbaycanın dövlət başçısı ilə telefon danışığında Naxçıvana dron hücumunun ölkəsi tərəfindən törədilmədiyini bildirmişdi. Eyni mövqeni İranın XİN başçısı və Silahlı Qüvvələrin komandanlığı da ifadə etmişdi. Belə olan təqdirdə, Azərbaycanın mövqeyi bundan ibarətdir ki, insident ciddi şəkildə araşdırılmalı, ölkəmizə qarşı bu təxribatı törədənlər tapılıb cəzalandırılmalıdır. Azərbaycan rəsmi Tehrandan bu addımın atılmasını gözləyir.

## Bakı regional hərbi eskalasiyanın əleyhinədir

Nəzərə alaq ki, rəsmi Bakı regional hərbi eskalasiyanın əleyhinədir. Bununla bağlı Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib ki, bölgədə və qlobal səviyyədə təhlükəsizlik və sabitlik üçün ciddi təhdid yaradan hərbi eskalasiya dərin narahatlıq doğurur. "Qəti şəkildə, bütün tərəfləri maksimum təmkin nümayiş etdirməyə, gərginliyi daha da artıracaq hərəkətlərdən çəkinməyə və danışıqlar masasına qayıtmağa çağırırıq. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və beynəlxalq hüququn hamılıqla tanınmış norma və prinsiplərinə uyğun olaraq bütün dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və müstəqilliyinə hörmət edilməsinin vacibliyini vurğulayırıq", - deyə bəyanatda vurğulanıb. Göründüyü kimi, ölkəmiz bu münaqişədə tərəf tutmur, əksinə, münaqişə tərəflərini problemləri danışıqlar yolu ilə həll etməyə çağırır.

Bu gün Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Milli maraqlara uyğun olaraq reallaşdırılan xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlərini, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Cənubi Qafqazda yeni mənzərə yaranıb. Bu, dövlətimizin yaratdığı yeni reallıqlardan ibarətdir. Torpaqlarını işğaldan azad etdikdən sonra Azərbaycanın nəinki regionda, bütövlükdə, beynəlxalq müstəvidə mövqeləri əhəmiyyətli dərəcədə güclənib.

Azərbaycanın xarici siyasəti isə beynəlxalq hüquq prinsiplərinə əsaslanan, mehriban qonşuluq, qarşılıqlı hörmət və humanizm prinsiplərinə söykənən uğurlu bir xəttdir. Regionda sabitliyin təmin olunması, münaqişələrin dinc yolla həlli və humanitar siyasəti bu kursun əsasını təşkil edir. Ölkəmiz qonşu dövlətlərlə bərabərhüquqlu və qarşılıqlı maraqlara əsaslanan əlaqələrin qurulmasına böyük önəm verir. Azərbaycan regionda geosiyasi və iqtisadi birləşdirici körpü rolunu oynayır, enerji və nəqliyyat layihələri (məsələn, Bakı-Tbilisi-Qars, Şimal-Cənub) ilə qonşuların iqtisadi əlaqələrini dəstəkləyir.

Bununla belə yaxın regionlarda qonşu dövlətlərin ərazilərində baş verən hərbi toqquşmalar ciddi narahatlıq doğurur. Bu mənada, Yaxın Şərqdə yenidən alovlanan münaqişə bütün region üçün təhlükədir. Azərbaycan da yaranmış vəziyyətdən narahatdır. Çünki İran Azərbaycanın yaxın qonşusudur, bu ölkədə milyonlarla azərbaycanlı yaşayır.

## Azərbaycanın mövqeyi dəyişməzdir




Azərbaycan dünyada, o cümlədən yaxın regionumuzda sülh və sabitliyin tərəfdarıdır. Ölkəmiz hər zaman bu mövqeyini nümayiş etdirib. Təsadüfi deyil ki, Azərbaycan bir sıra qarşı duran tərəflər arasında vasitəçilik edib, eləcə də onların görüşlərinə evsahibliyi edib. Buna nümunə olaraq, ABŞ - Rusiya, NATO - Rusiya, İsrail - Suriya nümayəndələri arasında keçirilən görüşləri göstərmək olar. Eyni zamanda, Azərbaycan üçüncü ölkələrin öz ərazisindən qonşu dövlətlərə qarşı istifadəsinə heç zaman icazə verməyib. Bu faktı xarici işlər nazirləri arasında telefon danışığı da təsdiqləyir. Bir müddət öncə Ceyhun Bayramov və Seyid Abbas Əraqçinin telefon danışığında Azərbaycanın rəsmi mövqeyi ifadə edilib və qeyd olunub ki, Azərbaycan heç vaxt öz ərazisindən İrana qarşı hər hansı təhdidə yol verməyəcək.

Onu da qeyd edək ki, İran ətrafında münaqişənin alovlanmasından sonra bu ölkədəki xarici ölkə vətəndaşlarının Azərbaycan ərazisi vasitəsilə təxliyəsi həyata keçirilir. Bu fakt isə ölkəmizin humanitar siyasətinin bariz göstəricisidir. Məlumdur ki, Azərbaycan müxtəlif ölkələrə humanitar yardımlar göstərir, ekoloji və təbii fəlakətlər zamanı dəstək nümayiş etdirir. Eləcə də, Prezident İlham Əliyevin tapşırığı ilə İrana humanitar yardım karvanları göndərilib. Bütövlükdə, Azərbaycanın humanitar siyasəti regionda sülh və əmin-amanlığın möhkəmlənməsinə xidmət edir.

Beləliklə, ölkəmizin mövqeyi bərabərlik, qarşılıqlı anlaşma və mehriban qonşuluq, humanizm prinsiplərinə əsaslanır. Azərbaycanın mehriban qonşuluq siyasəti regionda sülhün və təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır. Gərginliyin davam etdiyi hazırkı şəraitdə də dövlətimiz bu mövqeyini həyata keçirməkdədir. Bütün bunların fonunda rəsmi Tehran da münasibətlərdə səmimi olmalı, Naxçıvana dron hücumu ilə bağlı araşdırma apararaq günahkarları cəzalandırmalıdır.

*Nardar BAYRAMLI*

# İrəvan Bakının daha bir tələbini yerinə yetirir

Postmüharibə dövründə qalib Azərbaycanın regionda davamlı sülhün təmin olunması üçün Ermənistan qarşısında qoyduğu daha bir haqlı tələb həllini tapmaq üzrədir. Söhbət Ermənistan konstitusiyasının dəyişdirlməsindən gedir. Bu günlərdə İrəvandan yeni konstitusiyanın layihəsinin mətninin artıq hazır olduğuna dair xəbərlər gəlib.

Bu barədə Ermənistanın ədliyyə naziri Srbuhi Qalyan nazir yanında İctimai Şuranın ilk iclasında bildirib. Onun sözlərinə görə, layihə Mülki Müqavilə Şurası və parlament fraksiyası tərəfindən müzakirə olunacaq. "Konstitusiyanın mətnini ən qısa zamanda dərc edəcəyik. Aydındır ki, referendum seçkilərlə eyni vaxtda keçirilə bilməz. Bu o deməkdir ki, ictimaiyyətlə ünsiyyət qurmaq üçün daha çox vaxtımız olacaq", - deyə Qalyan deyib.

Nazir əlavə edib k, məqsəd sənədin mətni ilə mümkün qədər çox vətəndaşın tanış olmasını təmin etməkdir.

## Qalib Azərbaycanın əbədi sülh istəyi



Bu gün dünyada müşahidə edilən kataklizmlər, Yaxın Şərqi və Şərqi Avropanı bürüyən dəhşətli müharibələr fonunda sülhün, təhlükəsizliyin önəmi daha aydın şəkildə dərk olunur. Azərbaycan Birinci və İkinci Qarabağ müharibələrinin ağır fəlakətlərini yaşayan ölkədir. Ötən əsrin doxsanıncı illərinin əvvəllərindən başlayan otuz illik işğal dövründə biz humanitar fəlakətlə üzləşmişik, bir milyondan artıq qaçqın və məcburi köçkün soydaşımız çadırlarda, vaqonlarda, uyğun olmayan yarımçıq tikililərdə yaşamaq məcburiyyətində qalıblar. Şəhidlər vermişik. İşğal altına düşən şəhər və kəndlərimiz, tarixi abidələrimiz vəhşicəsinə dağıdılıb, təbii sərvətlərimiz talanıb. Buna görə də xalqımız, ölkəmiz üçün sülh hər şeydən qiymətlidir. Prezident İlham Əliyev bu günlərdə paytaxtımızda "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda baş tutan XIII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında bir daha Azərbaycan dövlətinin sülh istəyinə diqqət çəkərək bildirib ki, biz uzunmüddətli deyil, əbədi sülhə sadiqik. "Bu, bizim strategiyamız və siyasətimizdir və bir daha onu nümayiş etdirir ki, Azərbaycan sülhsevər ölkədir", - deyə dövlətimizin başçısı vurğulayıb.

Qalib Azərbaycan sülh niyyətində olduğunu İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra bütün dünyaya bəyan etdi. Bunun təsdiqi olaraq Azərbaycanın qarşı tərəfə göndərdiyi 5 bənddən ibarət sülh paketi beynəlxalq norma və prinsiplərə istinad olunmaqla hazırlanmışdı. Burada Azərbaycan qalib dövlət olaraq hansısa bir imtiyazlardan çıxış etməmişdi ki, bu da ölkəmizin sülh istəyində nə qədər səmimi olduğunu təsdiqləyir. Bundan sonra sülhyaratma prosesinə start verildi. Təəssüf ki, yenə də Ermənistanın və bu dövlətin xaricdəki havadarlarının manipulyasiyalara əl atmaları səbəbindən sülhyaratma prosesi rəvan şəkildə irəliləmədi və müəyyən zaman itkisinə yol verildi. Ancaq nəticə etibarı ilə Azərbaycanın iradəsi qalib gəldi və sülhyaratma prosesini ötən il avqustun 8-də Vaşinqtonda əldə olunan mühüm razılaşmalaradək irəlilətmək mümkün oldu. Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin, eləcə də ABŞ Prezidentinin iştirakı ilə hər iki ölkənin xarici işlər nazirləri tərəfindən paraflanan "Azərbaycan Respublikası ilə Emənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in mətnində əsas müddəalardan biri məhz ərazi bütövlüyü ilə bağlıdır. Beləliklə də, qalib Azərbaycanın tarixi ədalətə və dünyada qəbul olunan hüquq normalarına əsaslanan sülh gündəliyi beynəlxalq səviyyədə təsdiqini tapdı və təqdir olundu.

## Sülh yolunda əsas maneə - Ermənistanın mövcud konstitusiyası

**İndi region Azərbaycanın iradəsi və yaratdığı reallıqlar sayəsində heç vaxt olmadığı qədər sülhə yaxındır. Daha dəqiq desək, hazırda bölgədə real sülh şəraiti var və etimad quruculuğu yolunda addımlar atılır. O cümlədən vətəndaş cəmiyyəti təsisatlarının nümayəndələrinin Bakıda və İrəvanda görüşləri keçirilir**

Vaşinqton görüşündən sonra onilliklər ərzində işğalçılıq siyasətindən əziyyət çəkən Cənubi Qafqaz coğrafiyasında yeni bir dönəm başlayıb. Son yeddi ayda Ağ Evdə, dünyanın bir nömrəli ofisində əldə olunan razılaşmaların həyata keçirilməsi istiqamətində mühüm addımlar atılıb. O cümlədən otuz il ərzində keçmiş Dağlıq Qarabağ münaqişəsinin həllinə hansısa bir töhfə verməyən ATƏT-in Minsk qrupu prosedur qaydalarına uyğun olaraq ləğv edilib və tarixin arxivinə göndərilib.

İndi region Azərbaycanın iradəsi və yaratdığı reallıqlar sayəsində heç vaxt olmadığı qədər sülhə yaxındır. Daha dəqiq desək, hazırda bölgədə real sülh şəraiti var və etimad quruculuğu yolunda addımlar atılır. O cümlədən vətəndaş cəmiyyəti təsisatlarının nümayəndələrinin Bakıda və İrəvanda görüşləri keçirilir. Sərhədlərimizdə artıq atışmanın, qurbanların, itkilərin olmadığını vurğulayan dövlətimizin başçısı bildirib: "Biz müxtəlif istiqamətlərdən bütün yüklərin Ermənistana daşınmasına olan məhdudiyyətləri aradan qaldırmışıq. Biz Ermənistanla ticarətə və onlara ən vacib neft məhsullarının ixracına başlamışıq".

Bu kimi müsbət irəliləyişlər fonunda, hazırda yekun sülh sazişinin imzalanması yolunda yeganə maneə Ermənistanın indiki - qüvvədə olan konstitusiyasının məzmunudur. Azərbaycan qalıcı sülh mövqeyindən çıxış edir. Bunun üçün isə yalnız sülh sazişini imzalamaq yetərli deyil. Qalıcı sülh üçün fundamental hüquqi baza olmalıdır. Ancaq Ermənistanın hazırkı konstitusiyası bu bazanı təmin etmir. Bu da onunla bağlıdır ki, Ermənistanın əsas qanununun preampula hissəsində açıq-aşkar respublikamıza qarşı ərazi iddialarının yer aldığı müddəalar var. Yeri gəlmişkən, Ermənistanın mövcud konstitusiyasının məzmununun sülh prosesi ilə adekvat olmadığı qonşu ölkənin özündə də etiraf olunur. Baş nazir Nikol Paşinyan bir müddət əvvəl Ermənistanın yeni konstitusiyasında Müstəqillik Bəyannaməsinə istinad edilməməli olduğunu, çünki bunun münaqişəyə səbəb olacağını bildirib.

Belə bir vəziyyətdə hansı məntiqlə qalıcı sülhdən danışmaq mümkündür? Buna görə də sülh təşəbbüsünün müəllifi olan Azərbaycan Ermənistan konstitusiyasının dəyişdirilməsini yekun sənədin imzalanması üçün əsas şərtlərdən biri kimi irəli sürüb. Ermənistan konstitusiya dəyişikliyinə getməklə sülh prosesinə nə qədər sadiq olduğunu ortaya qoyacaq. Bu dəyişikliklər ediləndən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər.

*MÜBARİZ*

# Azərbaycan XİN: Çanaqqala şəhidlərinin əziz xatirəsini dərin hörmətlə anırıq




Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) "X" hesabında Çanaqqala şəhidlərinə dair paylaşım edilib.

Paylaşımda deyilir: "18 Mart - Çanaqqala Zəfəri Günüdür. Çanaqqala müharibəsində böyük fədakarlıq göstərmiş şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla anırıq. Onların göstərdiyi şücaət və birlik ruhu Azərbaycan ilə Türkiyə arasındakı qardaşlıq əlaqələrinin sarsılmaz təməlini təşkil edir. Ruhları şad olsun".

Qeyd edək ki, martın 18-i Birinci Dünya müharibəsinin ən qanlı hərbi əməliyyatlarından biri olan Çanaqqala döyüşlərinin anım günüdür. Bu gün tarixin ağrılı olduğu qədər də şərəfli günlərindən sayılan Çanaqqala Dəniz Zəfərindən 111 il keçir.

Hər il bu gün Türkiyədə Çanaqqala Dəniz Zəfəri və 18 Mart - Şəhidləri Anma Günü kimi yad edilir. Bu döyüşlərdə Osmanlı Ordusu 250 min şəhid versə də, Çanaqqala boğazının keçilməz olduğunu düşmənə sübut edib.

# "ASAN xidmət" BMT-nin İnsan Hüquqları Şurası çərçivəsində qabaqcıl təcrübə kimi qiymətləndirilib



BMT-nin İnsan Hüquqları Şurasının 61-ci sessiyası çərçivəsində "Dövlət xidmətlərinin göstərilməsi və insan hüquqları: İnsan hüquqları və dayanıqlı inkişaf üçün davamlı və inklüziv dövlət xidmətlərinin göstərilməsinin gücləndirilməsi" mövzusunda tədbir keçirilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbir Azərbaycanın Cenevrədəki Daimi Nümayəndəliyi ilə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı tərəfindən təşkil olunub. BMT-nin Cenevrədə yerləşən müxtəlif bölmələrinin nümayəndələri, BMT-nin Cenevrədəki bölməsində akkreditə olunmuş Daimi nümayəndəliklərin rəsmiləri və beynəlxalq ekspertlər də iştirak ediblər.

Azərbaycan Respublikasının BMT-nin Cenevrədəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Qalib İsrafilov 2018-ci və 2023-cü illərdə BMT-nin İnsan Hüquqları Şurasının müvafiq sessiyaları çərçivəsində ölkəmizin təşəbbüsü ilə "Şəffaf, hesabatlı və səmərəli dövlət xidmətlərinin göstərilməsi vasitəsilə insan hüquqlarının və Dayanıqlı İnkişaf Məqsədlərinin təşviqi" mövzusunda qəbul olunmuş qətnamələrin əhəmiyyətini, habelə, bu sahədə əldə edilmiş nailiyyətləri vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin nümayəndəsi Prezident İlham Əliyevin təşəbbüsü əsasında yaradılmış "ASAN xidmət" mərkəzlərində göstərilən şəffaf, effektiv və əlçatan xidmətlərin insan hüquqlarının realizəsi baxımından əhəmiyyətinə toxunub. O, "ASAN xidmət" modelinin müxtəlif istiqamətlər üzrə BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına mühüm töhfələr verdiyini vurğulayıb. Dövlət xidmətlərinin göstərilməsi sahəsində ölkəmizin beynəlxalq səviyyədə tanınan intellektual brendi olan "ASAN xidmət" modelinin ixracı istiqamətində hazırda 30-dan çox ölkə və beynəlxalq təşkilat ilə əməkdaşlığın həyata keçirildiyi diqqətə çatdırılıb.

Həmçinin "ASAN xidmət" mərkəzlərində tətbiq olunan innovativ həllər, Səyyar "ASAN xidmət", ASAN könüllülük proqramı, "ASAN viza", "İNNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi barədə təqdimat edilib.

# "Fitch Ratings"dən proqnoz: Neftin qiyməti 100 dollar səviyyəsində qalarsa...




Neft qiymətlərindəki bahalaşma uzun müddət davam etməsə, cari il qlobal iqtisadiyyatda 2,6 faiz sabit artım gözlənilir. Lakin neftin qiymətinin 100 dollar/barel səviyyəsində qalacağı ssenaridə isə qlobal təchizatda ciddi fasilə riski yüksəkdir. Bu proqnozla "Fitch Ratings" beynəlxalq reytinq agentliyi çıxış edib.

Bildirilir ki, neft qiymətlərinin artması və tədarük məhdudiyyətləri uzun müddət davam edərsə, inflyasiya kəskin şəkildə arta və iqtisadi artım əhəmiyyətli dərəcədə azala bilər. Neft qiymətlərinin bu artımı baza ssenarilərinə görə nisbətən qısamüddətli ola bilər. Lakin neft qiymətləri bir il ərzində 100 dollar səviyyəsində qalarsa, dörd rübün sonunda qlobal ÜDM yarım bənd daha aşağı ola bilər. Bu da 500 milyard dollarlıq şok deməkdir.

Analitiklər hazırda Yaxın Şərqdəki münaqişənin qlobal iqtisadiyyata təsirlərinin çox güman ki, müvəqqəti olacağına inanırlar. Münaqişədən əvvəl də bazarda artıq neft tədarükü olduğu və Hörmüz boğazının yenidən açılmasından sonra qiymətlərin olduqca tez düşə biləcəyi bildirilib.

Qlobal neft tələbatının 20 faizini təşkil edən gündəlik təxminən 20 milyon barel neftin daşındığı Hörmüz boğazının bağlanması xam neft və neft məhsulları ticarətinin demək olar ki, dayandırılmasına səbəb olub. Bu da neft bazarlarında tədarüklə bağlı narahatlıqların dərinləşdirir və kəskin qiymət artımlarına səbəb olur.

Beynəlxalq Enerji Agentliyi isə Körfəzdən tədarükün azalması səbəbindən bu ay ərzində gündəlik təxminən 10 milyon barel neftin istismardan çıxarılacağını proqnozlaşdırır. Bu, qlobal bazarı tarixində ən böyük tədarük çatışmazlığı ola bilər.

# Korrupsioner Okampodan yeni "kampaniya"...

## Əli hər yerdən üzülən "prokuror" son çırpınışlarını edir

Azərbaycanın regionda yaratdığı yeni reallıqlar sülhə doğru irəliləməkdədir. Ötən il Vaşinqtonda baş tutan Sülh Zirvəsi zamanı sülh sazişi layihəsinin paraflanması, ATƏT-in Minsk qrupunun ləğvinin reallaşması, Azərbaycanın Ermənistana yük daşınması ilə bağlı embarqonu aradan qaldırması, neft məhsulları ixrac edilməsi münasibətlərin normallaşmasının yekun sənədlə təsdiqlənəcəyini deməyə əsas verir. Bununla yanaşı, artıq Ermənistan Azərbaycanın sülhlə bağlı əsas şərtini yerinə yetirir - ölkə Konstitusiyasında müvafiq dəyişikliklər edilir, ölkəmizə qarşı əsassız torpaq iddiası aradan qaldırılır. Bütün bunlar isə sülhün yaxın zamanda imzalanması perspektivindən xəbər verir.

Təəssüfləndirici haldır ki, Ermənistanın Azərbaycanın sülh şərtlərini qəbul etməsi, ikitərəfli münasibətlərin normallaşması ilə bağlı müsbətyönümlü bəyanatlar verməsi fonunda bəzi anti-Azərbaycan qüvvələr yenə də "sakitləşmək bilmir". Ölkəmizin beynəlxalq hüquq çərçivəsindəki davranışlarını həzm edə bilməyən bu qüvvələr hər hansı bir yolla sülh prosesinə kölgə salmaq, revanşizm toxumları səpmək, bölgənin sabitliyinə xələl vurmaq istəyirlər.

### Yeni çirkin cəhd...

Maraqlıdır ki, artıq daha çox antisülh mahiyyət daşıyan bu addımların arxasından yenə də eyni cinayətkar, korrupsioner şəxsin "silueti" görünür - adını "hüquqşünas" qoymuş cinayətkar Luis Moreno Okamponun... Maddi maraqlarının girovuna çevrilmiş bu şəxs prosesin son nəticəyə doğru yaxınlaşdığı anda belə özünün çirkin əməllərindən çəkinmək istəmir. Belə ki, Okampo özünün feysbuk səhifəsində bildirib ki, Bakıda həbsdə olan erməni cinayətkarlar və Qarabağdan könüllü gedən ermənilərlə bağlı yeni kampaniya başlayacaq. Qeyd edək ki, Avropa Siyasi Birliyinin (AİB) 8-ci Zirvə Görüşündən əvvəl, mayın 4-də Böyük Britaniya, Norveç və İsveçrə kimi Avropa İttifaqına üzv olmayan ölkələr də daxil olmaqla, 40-dan çox ölkənin lideri İrəvanda toplaşacaq. Zirvə toplantısının məqsədi "ümumi strateji çağırışlara cavabları əlaqələndirmək"dir. Növbəti gün isə Ermənistanın Avropaya inteqrasiyasını dərinləşdirmək məqsədi ilə Aİ qurumlarının rəhbərlərini bir araya gətirən ilk Ermənistan-Aİ Zirvə toplantısı keçiriləcək. Okampo etiraf edib ki, Qarabağ mövzusu görüşlərin gündəliyində deyil: "Amma Avropa liderləri 120 min insanın tarixi vətənlərindən zorla qovulduğu reallığı ilə üzləşəcək. Girovların azad edilməsi, Ermənistanın müdafiəsi və Dağlıq Qarabağ xalqına hörmətlə yanaşmaq üçün sosial mediada yeni bir kampaniya başlayacaq", - deyə korrupsioner Okampo yazıb.

### Okamponun yalanları...

Korrupsioner keçmiş prokurorun iddiaları da gülüncdür. Qarabağı könüllü şəkildə tərk edən ermənilərin adından manipulyasiya etməyə çalışan Okampo özü özünü biabır edir. Cəmisi bir neçə gün öncə Ermənistanın baş naziri Nikol Paşinyan Avropa Parlamentinin tribunasından bəyan etdi ki, Qarabağdan Ermənistana gələn insanların hamısına Ermənistan vətəndaşlığı veriləcək. Əslində, erməni baş nazir bu sözü ilə bütün dünyaya, ən əsası da manipulyativ oyunlarla sülhə mane olmağa çalışanlara bir mesaj ünvanladı - yəni artıq bu məsələ gündəmdən çıxıb. Okamponun yenidən bu məsələyə qayıtmaq cəhdi isə onu göstərir ki, hazırlanan çirkin oyunlar birbaşa sülhü hədəfə almaq niyyətindən doğur. Görünür, həyatını korrupsiyaya, çirkli pullara, şər və böhtan "lobbi"çiliyi üzərində qurulan maraqlara "həsr edən" Okampo sonuncu dəfə də olsa, qazanc əldə etmək niyyətindən əl çəkmir.

### Avropa adından manipulyasiya...

Okamponun bu çirkin cəhdi əslində "arxadan atılan daş"a bənzəyir. Birincisi, Qarabağ mövzusunun gündəlikdə olmaması Avropa məkanının həm sülh prosesinə dəstəyinin, həm də reallıqları qəbul etməsinin göstəricisidir. Avropa kontingenti Cənubi Qafqazın lideri və hazırki qlobal proseslərin aparıcı aktorlarından sayılan Azərbaycanın bölgə üzərindən yeni iqtisadi nizam təşəbbüslərini diqqətlə izləyir. Avropa İttifaqı Şurasının rəhbəri Antonio Koştanın son Bakı səfəri və verilən birgə bəyanat bunu təsdiqləyir. Yəni Okamponun ictimai rəyə sırımağa çalışdığı bu qeyri-real kampaniya sadəcə "bir aktyorun teatrı" sayılır. Təxminən 5 ildən artıqdır ki, Azərbaycana qarşı əsassız iddialar irəli sürən Okampo artıq son çırpınışlarını edir - özünün də etiraf etdiyi kimi, Avropa üçün Cənubi Qafqazın konfrantasiya dövrü arxada qalıb. Yeni dövrdə əsas gündəm regional əməkdaşlığın inkişaf etdirilməsi, yeni enerji layihələrinin reallaşdırılması, ticari - logistik əlaqələrin gücləndirilməsidir. Bir sözlə, Okamponun bu çirkin kampaniyası özünün "solo" ifasından uzağa getmir.



### Cinayətkarları müdafiə "kampaniyası"...

Azərbaycan özünün bütün davranışlarında beynəlxalq hüququ əsas götürür - müharibədən və antiterror tədbirlərindən sonra Azərbaycan dövləti beynəlxalq hüququ əsas götürərək bir sıra cinayətlərdə günahlandırılan şəxslərin ədalətli mühakiməsini reallaşdırdı. Qarabağdakı xuntanın çöküşü ilə Azərbaycan xalqına və dövlətinə qarşı qeyri-qanuni fəaliyyət göstərmiş, cinayətlərdə günahlandırılan şəxslər Cinayət Məcəlləsinin müvafiq bəndləri əsasında saxlanılaraq mühakimə qarşısına çıxarıldı. Ən əsas isə Qarabağdakı separatçıların keçmiş rəhbərləri Azərbaycanın ədalət məhkəməsi qarşısında cavab verdilər. Bu şəxslər Azərbaycan qanunlarını pozmaqda, separatizmi yaymaqda, terrorda və digər məsələlərdə günahlandırılırdılar və cinayət araşdırması zamanı bütün məsələlər gün işığına çıxdı. Hətta bunlardan bəziləri, öz günahlarını geniş auditoriya qarşısında etiraf etdilər. Nəhayət, həmin şəxslərə qanuna müvafiq olaraq cəza verildi. Okamponun həmin cinayətkarlar üzərindən yenidən oyun qurması isə məsələnin əsl üzünü ortaya çıxarır - köhnə korrupsioner elə köhnə "şakərindən" əl çəkə bilmir. Təsadüfi deyil ki, bədnam keçmişi olan Luis Moreno Okampo korrupsiyada ittiham olunub - onun vaxtilə Qarabağ separatçılarına başçılıq edən şəxslərlə, xüsusilə Araik Arutyunyan və Ruben Vardanyanla sıx əlaqələri olmuşdu. Onların həbsindən sonra isə külli miqdarda vəsait qarşılığında həmin şəxslərlə bağlı beynəlxalq təşkilatlara təzyiq göstərməyə və onların məsuliyyətdən yayınmasına nail olmağa çalışan Okamponun "oxu daşa dəymişdi". Görünür, keçmiş korrupsioner dələduz addımlarından çəkinmək fikrində deyil.

Okamponu yenə də eyni aqibət gözləyir - biabırçılıq, gülünclük. Çünki yalan üzərindən aparılan kampaniyalar heç bir zaman qalib gələ bilməz. Uğursuzluq isə Okamponun həyat tərzidir...

**P.İSMAYILOV**

# Orta aylıq pensiyanın məbləği 593 manata çatıb

## Bu, ölkə üzrə orta aylıq əməkhaqqının 57,2 faizi deməkdir

2026-cı il martın 1-nə olan dövrdə ölkədə orta aylıq əməkhaqqı 1103,8 manat, orta aylıq pensiya 593 manat, yaşa görə orta aylıq pensiya 632 manat təşkil etməklə, qeyd edilən nisbət 2018-ci ilə nisbətən orta aylıq pensiya üzrə 40,7 faizdən 54 faizə, yaşa görə orta aylıq pensiya üzrə 45,8 faizdən 57,2 faizə çatıb. 2018-ci ildən ötən dövrdə icra olunan 5 sosial islahat paketinin bir istiqaməti olaraq pensiyalarda davamlı artımlara nail olunması orta aylıq pensiyanın orta aylıq əməkhaqqına nisbətinin (əvəzetmə əmsalı) qabaqcıl beynəlxalq normalara uyğunlaşdırılmasında mühüm irəliləyişə imkan verib. Bu sosial normativlər beynəlxalq təşkilatların tövsiyə etdiyi 40-60 faiz intervalına tam uyğun olmaqla, Azərbaycan pensiya sisteminin dayanıqlılığını və balanslı strukturunu əks etdirir.

### 1,1 milyon pensiyaçını əhatə edən sosial siyasət

Məlum olduğu kimi, 2026-cı il yanvarın 1-dən əmək pensiyaları 9,3 faiz artırılıb. Dövlət başçısının müvafiq sərəncamına əsasən, indeksasiya üzrə bütün növ əmək pensiyaları artımla təmin edilib. Belə ki, "Əmək pensiyaları haqqında" qanunun 4-cü maddəsinə əsasən, əmək pensiyalarının 3 növü təsbit olunub. Bunlar yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası və ailə başçısını itirməyə görə əmək pensiyasıdır. Deməli, vətəndaşımız növündən asılı olmayaraq əmək pensiyası alırsa, onun pensiya məbləğinə artım hesablanacaq. Eləcə də, son bir ildə əmək və pensiya qanunvericiliyinə edilmiş dəyişikliklər sayəsində əmək pensiyası hüququ əldə edənlərin də təqaüdləri artırılıb.

Ümumiyyətlə, son 3 ildə "Əmək pensiyaları haqqında" qanuna edilmiş müvafiq dəyişikliklər nəticəsində əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi prinsipləri təkmilləşdirilib. Belə ki, əmək pensiyasına qulluq stajına görə əlavələrin hesablanması zamanı əsas götürülən əməkhaqqı, dövlət məvacibi, yaxud təminat xərcliyi müəyyən edilərkən şəxsin yalnız əmək və ya xidməti vəzifələrinin yerinə yetirməsinə görə almış olduğu ödənişlər və onlara sonrakı artımlar pensiya təyinatı tarixinə qədər nəzərə alınır. Bu o deməkdir ki, pensiya təyinatınadək olan əmək və ya xidməti vəzifələrinin yerinə yetirməsinə görə almış olduğu ödənişlər və onlara sonrakı artımlar pensiya məbləğinin hesablanmasında istifadə olunur. Eləcə də, həmin qanuna ötən il edilmiş (Maddə 9. Güzəştli şərtlərlə əmək pensiyası hüququ olan digər şəxslər) dəyişikliklərdən sonra incəsənətin xüsusi sahələrinin, yeraltı, əmək şəraiti xüsusilə zərərli və ağır olan işlərdə çalışan şəxslərin pensiya yaşı həddinin 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ alması, eləcə də hərbi qulluqçuların həqiqi xidmət dövrü üzrə müddətə görə, güzəştli pensiya hüququ qazanması sayəsində son bir ildə xüsusi şərtlərlə pensiya alanların da sayında əhəmiyyətli artımlara səbəb olub. Həmçinin, 2023-cü ilin yanvar ayında ötən ilin eyni dövrü ilə müqayisədə yaşa və əlilliyə görə müavinət alanların, ailə başçısını itirməyə və digər müavinət növləri ilə əhatə edilənlərin də sayında artım qeydə alınıb. Bütün bu dəyişikliklər pensiya sahəsində sosial ədalətlilik prinsipinin təmin edilməsinə səbəb olub. Beləliklə, pensiyaların indeksləşdirilməsi 1,1 milyon pensiyaçını əhatə etməkdədir.




### Əhatəli sosial islahatlar rifahı yaxşılaşdırıb

Göründüyü kimi, həyata keçirilən ardıcıl və məqsədyönlü siyasi kurs ölkəmizin sürətli və dayanıqlı inkişafını, güclü iqtisadi potensialın formalaşmasını, müasir cəmiyyət quruculuğunu, vətəndaşların rifahını, təhlükəsizlik və müasir ordu quruculuğu kimi məsələlərin effektiv həllini təmin etməkdədir. Ölkəmizin beynəlxalq nüfuzu yüksəlib, dünyada strateji əhəmiyyəti artıb. Ölkədə əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl genişmiqyaslı dövlət proqramları həyata keçirilib, yoxsul təbəqənin ehtiyaclarının qarşılanmasına yönələn ünvanlı dövlət sosial yardımı genişləndirilib, aztəminatlı ailələrin təminatı daha da gücləndirilib.

**Həyata keçirilən ardıcıl və məqsədyönlü siyasi kurs ölkəmizin sürətli və dayanıqlı inkişafını, güclü iqtisadi potensialın formalaşmasını, müasir cəmiyyət quruculuğunu, vətəndaşların rifahını, təhlükəsizlik və müasir ordu quruculuğu kimi məsələlərin effektiv həllini təmin etməkdədir. Ölkəmizin beynəlxalq nüfuzu yüksəlib, dünyada strateji əhəmiyyəti artıb. Ölkədə əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl genişmiqyaslı dövlət proqramları həyata keçirilib, yoxsul təbəqənin ehtiyaclarının qarşılanmasına yönələn ünvanlı dövlət sosial yardımı genişləndirilib, aztəminatlı ailələrin təminatı daha da gücləndirilib**

Son 22 ildə dayanıqlı sosial təminat daha da möhkəmlənib, insanların sosial həyatında müsbət meyillər güclənib. 2003-cü ildən ötən dövrdə ölkə üzrə minimum aylıq əməkhaqqı 44,4 dəfə artırılaraq 400, minimum aylıq pensiya 16 dəfə artırılaraq 320 manata çatıb. Orta aylıq əməkhaqqı 14,2 dəfə artaraq 77 manatdan 1095, orta aylıq pensiya 22,6 dəfə artaraq 539, yaşa görə orta aylıq pensiya 23,1 dəfə artaraq 574 manata yüksəlib.

Son yeddi il ərzində 5 sosial islahat paketi icra edilib və islahatlar 4 milyon nəfəri əhatə edib. Bu sosial proqramların maliyyə tutumu təqribən 8 milyard manata yaxındır. Təkcə keçən il 1,4 milyard büdcə vəsaiti həmin məqsədlər üçün xərclənib və maaş, pensiya və müavinətlərin artımı təmin edilib. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2,2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılıb, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə endirilib.

Bir məqamı da xüsusi olaraq nəzərə almaq lazımdır ki, Azərbaycanda artıq inflyasiya birrəqəmli həddədir, bu isə orta aylıq pensiya məbləğinin və digər sosial artımların artım tempinin inflyasiya rəqəmini üstələməsinə səbəb olacaq. Yəni artımlar nominal dəyər baxımından alıcılıq qabiliyyətinin yaxşılaşmasına imkan verəcək.

Beləliklə, ölkəmizdə əhalinin sosial rifahının yüksəldilməsi və pensiyaçıların maddi təminatının gücləndirilməsi dövlət siyasətinin əsas prioritet istiqamətlərindən birini təşkil etməklə davamlı xarakter daşıyır. Son illər bu sahədə həyata keçirilən sistemli islahatlar və qəbul edilən qərarlar Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə formalaşdırılan sosialyönümlü inkişaf modelinin mühüm göstəricisidir. Bu baxımdan pensiyaların indeksləşdirilərək artırılması ilə bağlı növbəti qərar sosial müdafiə sahəsində ardıcıllığın və davamlılığın bariz nümunəsidir.

*E.CƏFƏRLİ*

# Daha etibarlı və təhlükəsiz...

## Məsafədən bank hesabının açılması "Sima İmza" ilə mümkün olacaq

Ölkəmizdə rəqəmsal bankçılıq xidmətlərinin inkişafı və bu istiqamətdə təkmil hüquqi çərçivənin formalaşdırılması Mərkəzi Bank (MB) tərəfindən daim diqqət mərkəzində saxlanılır. Elektron bankçılıq üzrə hüquqi bazanın təkmilləşdirilməsi, habelə innovativ həllərin tətbiqinin dəstəklənməsi məqsədilə məsafədən bank açmaq xidməti daha da təkmilləşdirilməkdədir. MB-nın "Məsafədən hesabların açılması Qaydası"na etdiyi dəyişikliyə əsasən, martın 17-dən etibarən məsafədən bank hesablarının açılması yalnız gücləndirilmiş elektron imza vasitəsilə mümkün olacaq. Bu yenilik maliyyə institutlarından müştərilərin məsafədən identifikasiyası və autentifikasiyası prosesində yeni yanaşmaların tələbi nəzərə alınmaqla həyata keçiriləcək.

SİMA Rəqəmsal Həllər Platforması banklar da daxil olmaqla, bütün maliyyə qurumları üçün optimal və effektiv həll kimi çıxış etdiyindən məsafədən hesab açmaq alətinin də daha optimal və güclü platformaya inteqrasiyası nəzərə alınıb.

Belə ki, yeni qaydaların tətbiqi ilə maliyyə institutları müştərilərin məsafədən eyniləşdirilməsini müxtəlif üsullar vasitəsilə həyata keçirəcək ki, SİMA bu proseslərin hər biri üçün uyğun həlləri təmin edə biləcək. Qaydalara görə, hesab açılması zamanı istifadəçilərin foto çəkilişi vasitəsilə eyniləşdirilməsi "SİMA KYC" məhsulu vasitəsilə mümkün olacaq. Eləcə də videoqeydiyyat və ya videozəng əsasında eyniləşdirmə "SİMA KYC" platformasının eyniadlı həlləri ilə təmin ediləcək. Bu yanaşma maliyyə institutlarına müştərinin identifikasiyasını müxtəlif ssenarilər üzrə təhlükəsiz və çevik şəkildə təşkil etməyə imkan yaradır.

Ümumilikdə, məsafədən identifikasiya və autentifikasiya proseslərini ayrı-ayrı resurslar vasitəsilə həyata keçirmək əvəzinə, təkcə SİMA rəqəmsal imzanı tətbiq etməklə də həyata keçirmək mümkündür. Belə ki, "SİMA İmza" biometrik eyniləşdirmə və gücləndirilmiş elektron imza tələblərini vahid platformada birləşdirərək, yeni qaydanın bütün tələblərini təmin edir. Bu yanaşma bank əməliyyatlarının təhlükəsizliyini artırmaqla yanaşı, xidmətlərin daha sürətli və rahat şəkildə təqdim olunmasına şərait yaradacaq.

### 20 min manatadək hesab açdıqda "e-imza" tələb olunur

Qeyd edək ki, ölkəmizdə məsafədən bank hesabının açılması rəqəmsal xidmətlərin əhatə dairəsinin genişləndirilməsi, "müştəri-bank" münasibətlərini innovativ texnologiyalar platformasında quraraq daha olaraq həyata keçirməkdədir. 2022-ci ildən tətbiq olunan Mərkəzi Bankın "Bank hesablarının açılması, aparılması və bağlanması Qaydası"na əsasən, məsafədən bank hesabının açılması müştəri və bank fiziki iştirakı olmadan elektron vasitələrlə nəzərdə tutulur. Müvafiq meyarlara görə, fiziki şəxslər 500 manat, 6 min manat və 20 min manatadək hesab açmaq hüququna malikdir. 500 manatadək açılacaq hesab üçün elektron imza ("e-imza") tələb olunmur. Bunun üçün sadəcə istifadəçi adı və parolu gərəkdir, hesab 10 dəqiqə ərzində aktiv olacaq. 6 min manatadək hesabın açılmasına da "e-imza"ya ehtiyac duyulmur. Lakin burada vizual təsdiq etmək üçün görüntülü zəngi cavablandırmaq lazımdır. Məlumatlar bank tərəfindən yoxlanıldıqdan sonra sifarişçi ilə əlaqə saxlanılacaq və bütün danışıqlar (video görüntülü zəng) qeydə alınır və hesab açılır. Üçüncü meyara uğun olaraq sifarişçi 20 min manatadək hesab açdıqda isə "e-imza" tələb olunur. Fiziki şəxslərdən fərqli olaraq, hüquqi şəxslər tərəfindən açılacaq hesablara limit qoyulmayıb, ancaq onlardan istənilən halda hesab açmaq tələb edilir. Eləcə də, rezident fiziki şəxslər gücləndirilmiş müştəri autentifikasiyası və videozəng ilə məsafədən hesab açmaq imkanına malikdir.

Qərara əsasən, məsafədən hesab açılan zaman nəzarət subyekti tərəfindən istifadə edilən informasiya texnologiyaları, o cümlədən informasiya sistemi, proqram təminatı "Fərdi məlumatlar haqqında" Qanun və digər hüquqi aktlar ilə müəyyən edilmiş tələblərə cavab verməlidir. Bundan başqa, fiziki şəxs olan müştərilərə münasibətdə qanuni nümayəndə qismində valideynlər, övladlığa götürənlər və ya qəyyumlar, hüquqi şəxs olan müştərilərə münasibətdə qanuni təmsilçi istisna olmaqla müştəriyə digər səlahiyyətli nümayəndə vasitəsilə məsafədən hesab açılmasına yol verilməyəcək.




### Videozənglə təkrar kimliyi təsdiq etməyə də ehtiyac qalmayacaq

**Məsafədən hesab açılan zaman nəzarət subyekti tərəfindən istifadə edilən informasiya texnologiyaları, o cümlədən informasiya sistemi, proqram təminatı "Fərdi məlumatlar haqqında" Qanun və digər hüquqi aktlar ilə müəyyən edilmiş tələblərə cavab verməlidir. Bundan başqa, fiziki şəxs olan müştərilərə münasibətdə qanuni nümayəndə qismində valideynlər, övladlığa götürənlər və ya qəyyumlar, hüquqi şəxs olan müştərilərə münasibətdə qanuni təmsilçi istisna olmaqla müştəriyə digər səlahiyyətli nümayəndə vasitəsilə məsafədən hesab açılmasına yol verilməyəcək**

Son illərdə ölkədə rəqəmsal arxitekturanın möhkəmləndirilməsi təhlükəsiz və operativ elektron xidmətlərin son müştəriyə çatdırılması məqsədilə tənzimləyici qurum blokçeyn əsaslı Rəqəmsal İdentifikasiya Sisteminin yaradılması ilə bağlı layihəni fəaliyyət planına uyğun məsafədən hesab açılması xidmətini ön plana çıxardığından MB bu sahədə xidməti təkmilləşdirmək və daha güclü identifikasiya sistemini tətbiq etmək qərarına gəlib. Nəticədə, SİMA - bulud əsaslı yeni nəsil rəqəmsal imza bank sektorunda əsas alət kimi nəzərdə tutulacaq. Yeni nəsil imzanın üstünlüyü həm də ondan ibarətdir ki, vətəndaşlar və fərdi sahibkarların müvafiq əməliyyatın həyata keçirilməsi üçün artıq müştərinin banka getməsinə və ya əvvəlki kimi bank əməkdaşının birgə videozənglə təkrar kimliyini təsdiqləməsinə ehtiyac yoxdur. SİMA rəqəmsal imzaya sahib olan şəxslər bank hesabının açılması üçün müştərisi olduğu banka onlayn qaydada müraciət edərək sonda təsdiq üçün sənədləri məhz elə SİMA gücləndirilmiş elektron imza ilə anında imzalaya bilərlər.

Beləliklə, məsafədən bank hesabı açmaq üçün elektron imza sistemi daha innovativ rəqəmsal platforma üzərindən - gücləndirilmiş "Sima İmza" ilə aparılacaq. Qaydaların təkmilləşdirilməsi ilk növbədə məsafədən bank xidmətlərinin əldə olunması imkanlarını genişləndirməklə, bank hesabının açılması prosesini rəqəmsal müstəvidə icrasını təmin edəcək. Bu isə bank və maliyyə sektorunda vətəndaşların hesablarındakı vəsaitlərin daha etibarlı qorunması və təhlükəsizlik modelinin qurulmasına imkan verəcək.

*E.CƏFƏRLİ*

# Sülh naminə...

## Türkiyə Rusiya-Ukrayna danışıqlarına ev sahibliyi etməyə hazırdır

**Rusiya-Ukrayna müharibəsi 4 ildən artıqdır ki, davam edir. Son zamanlar tərəflər arasında döyüşlər səngiməsə də, müharibənin dayandırılması üçün diplomatik təşəbbüslər artmışdı. ABŞ-ın vasitəçilik təşəbbüsləri fonunda tərəflər bir sıra görüşlər keçirmişdi. Lakin ABŞ-ın İranla müharibəyə başlaması Ukrayna problemini bir qədər arxa plana keçirib.**

### Kiyev niyə narahatdır?

Qeyd edək ki, 2022-ci il fevralın 24-də başlayan müharibə region üçün ağır nəticələr verib. Sonu görünməyən müharibə indiyə qədər həm Rusiyaya, həm də Ukraynaya xeyli zərər vurub. Belə ki, Ukraynada minlərlə mülki insan həyatını itirib, hərbçilər həlak olub, xeyli sayda infrastruktur dağıdılıb, milyonlarla insan qaçqın vəziyyətinə düşüb. Bu ölkənin ərazisinin 20 faizə yaxını hazırda Rusiya ordusunun nəzarətindədir. Müharibə Rusiya üçün də ağır nəticələrə səbəb olub. Bu günə qədər Rusiya tərəfinin döyüşlərdə yüz minlərlə hərbçisinin həlak olduğu barədə məlumatlar yayılıb.

Hazırda ABŞ-ın əsas diqqətinin İrana yönəlməsi rəsmi Kiyevi və onun müttəfiqlərini ciddi narahat edir. Kiyev problemin beynəlxalq birliyin gündəmindən düşməməsinə çalışır. Avropa İttifaqı (Aİ) da Ukrayna probleminin həllinin beynəlxalq gündəmdən çıxmamasının tərəfdarıdır. Ukraynadakı vəziyyətlə bağlı gələcək müzakirələrdən danışan Aİ-nin ali nümayəndəsi Kallas Yaxın Şərqə olan diqqətin Ukraynadakı vəziyyətdən yayındırılmamasının vacibliyini vurğulayıb. "ABŞ-ın Rusiya neftinin tədarükü ilə bağlı sanksiyaların yumşaldılması arzuolunmaz presedent yarada bilər, çünki indiki vəziyyətdə Rusiyanın müharibəni davam etdirmək üçün maliyyə resurslarını məhdudlaşdırmaq vacibdir. Hörmüz boğazının bağlanması da Rusiyanın xeyrinə olmaqla ona bu müharibəni maliyyələşdirməyə imkan verir" - deyə, o bəyan edib.

Belə bir şəraitdə rəsmi Ankara yenidən sülh üçün tərəfləri bir araya gətirməyə hazır olduğunu bəyan edib. Türkiyənin xarici işlər naziri Hakan Fidan kanadalı həmkarı Anita Anand ilə birgə mətbuat konfransında deyib ki, ABŞ və İsrailin İrana qarşı müharibəsi Rusiya-Ukrayna münaqişəsinin həlli üçün sülh prosesinə təsir etməməlidir. "Müzakirələrin növbəti raundu üçün Türkiyə ev sahibliyi etməyə hazırdır",- deyə H. Fidan bildirib və Rusiyanın xarici işlər naziri Sergey Lavrovla keçirilən son telefon danışığını xatırladıb: "Söhbət zamanı Moskva ilə Kiyev arasında sülhün əldə olunması istiqamətində fikir mübadiləsi aparılıb".

Xatırladaq ki, müharibənin başladığı ilk vaxtlardan regionun ən güclü dövlətlərindən biri olan Türkiyə sülh naminə tərəflər üçün vasitəçilik və danışıqlara ev sahibliyi edib. Bütövlükdə, Rusiya-Ukrayna müharibəsinin dayandırılması yönündə Türkiyənin



### Hakan Fidan tərəflərə çağırış etdi

göstərdiyi səylər bütün dünyada yüksək dəyərləndirilir. Həqiqətən də Türkiyə sülh, eləcə də müharibənin yaratdığı humanitar problemlərin qarşısının alınması üçün böyük fəallıq göstərir. Türkiyənin bu yöndə təşəbbüsləri müharibə aparan ölkələr tərəfindən də təqdir olunur. Rəsmi Ankara bölgədə sabitliyin təmin olunması üçün müntəzəm olaraq həm Kreml, həm də Kiyevlə təmasdadır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan hər iki ölkənin lideri ilə danışıqlar aparır.

Türkiyə böyük dövlətdir və bölgədə baş verən proseslərə təsir imkanları var. Son illər Türkiyə regional güc kimi özünü təsdiq edib. Yaxın Şərq böhranı ilə bağlı rəsmi Ankaranın oynadığı rol beynəlxalq birliyə çox yaxşı məlumdur. Hazırda isə Rusiya-Ukrayna müharibəsinin bitməsi üçün Türkiyənin böyük fəallığı göz önündədir. Türkiyə müharibədən əziyyət çəkən insanlara humanitar yardım göstərir, eləcə də onun vasitəçiliyi ilə münaqişə zonalarında dinc əhali üçün humanitar dəhlizlər açılıb. Xatırladaq ki, 2022-ci ildə Antalya Diplomatiya Forumu çərçivəsində Rusiya və Ukrayna xarici işlər nazirlərinin görüşü keçirilmişdi. Eyni zamanda, Rusiya və Ukrayna nümayəndə heyətlərinin İstanbulda keçirdiyi görüş sülh prosesinə müsbət təkan vermişdi. Rusiyanın Kiyev və Çerniqovda hərbi əməliyyatlarını əhəmiyyətli dərəcədə azaltmaq qərarı həqiqətən də mühüm addım idi və bu, İstanbul görüşünün nəticəsində baş verdi. Eləcə də Türkiyənin təşəbbüsü ilə 2022-ci il iyulun 13-də İstanbulda Türkiyə, Ukrayna, Rusiya və BMT nümayəndələrindən ibarət dördtərəfli görüş keçirilmişdi. Bu görüşün nəticəsi olaraq iyulun 22-də həmin məkanda taxıl ixracına dair saziş imzalandı. Sazişə uyğun olaraq, İstanbulda Rusiya və Ukrayna, BMT və Türkiyə nümayəndələrindən ibarət Birgə Koordinasiya Mərkəzi yaradılmışdı. "Taxıl və ərzaq mallarının Ukrayna limanlarından təhlükəsiz daşınması təşəbbüsü" razılaşmasına əsasən, müxtəlif ölkələrə onmilyonlarla ton Ukrayna taxılı daşındı. Saziş Türkiyənin fəal diplomatiyası nəticəsində bir neçə dəfə uzadıldı. Lakin Qərb dövlətlərinin öz vədlərini yerinə yetirməməsi səbəbindən Rusiya taxıl sazişinin uzadılmasından imtina etdi.

Türkiyənin təşəbbüslərinə müharibənin tərəfi olan hər iki ölkə etimad göstərir. Nəzərə alaq ki, ABŞ və Avropa İttifaqı ölkələri, eləcə də Böyük Britaniya Ukraynaya fəal dəstək verir. Bu da Rusiya tərəfindən qəbulolunmaz hesab edilir. Rusiyanı dəstəkləyən ölkələr isə Ukrayna tərəfindən qəbul olunmur. Amma qardaş Türkiyə iki ölkə arasında müharibənin bitməsi üçün heç bir maraq güdmədən, səmimi olaraq çalışır. Bu proseslərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderlik keyfiyyəti də xüsusi vurğulanmalıdır. Məhz bu səbəblərə görə, Ərdoğanın Nobel mükafatına layiq görülməsi təklif olunmuşdu. Çünki Rəcəb Tayyib Ərdoğan Türkiyənin lideri olaraq Rusiya-Ukrayna müharibəsinin dayandırılması üçün təkcə çağırışlar etmir, eyni zamanda, vacib addımlar atır.

Türkiyədən fərqli olaraq, Qərb ölkələri münaqişənin davam etməsində

### Kiyev və Moskva Türkiyəyə inanır

maraqlı görünür. Onlar öz maraqları naminə Ukraynanı qurban verir və müharibənin mümkün qədər uzanmasına çalışır. Sözdə Ukraynanın ərazi bütövlüyünü dəstəklədiklərini bəyan etsələr də, reallıqda Qərbin Kiyevə hərbi dəstəyi xeyli azalıb. Bu səbəbdən də, hazırda Ukrayna döyüş bölgəsində ciddi çətinliklərlə üz-üzə qalıb, silah-sursata ehtiyac artıb. Bu səbəbdən rəsmi Kiyev tərəfdaşlarından narazılığını açıq-aydın ifadə edir.

*N.BAYRAMLI*

# İranın parlament sədrinə sui-qəsd...

Yaxın Şərqdə döyüşlər davam edir. Fevralın sonundan başlayan hərbi əməliyyatlar nəticəsində İranın Ali Lideri Əli Xamenei də daxil olmaqla bir çox dövlət rəsmiləri və hərbi struktur rəhbərləri həyatını itirib. Ölənlər arasında Milli Təhlükəsizlik Şurasının katibi Əli Laricani, Müdafiə Şurasının katibi Əli Şamxani, SEPAH quru qoşunlarının komandanı Məhəmməd Pakpur, İran Ordusunun Baş Qərargah rəisi Əbdülrəhim Musəvi, müdafiə nazirləri Əziz Nəsirzadə, Məcid İbn-e-Rza və başqa tanınmış simalar yer alır. Bu arada İran rəsmi mənbələri hərbləşdirilmiş "Bəsic" qüvvələrinin komandanı, general-mayor Qulamrza Süleymaninin də öldüyünü təsdiqləyib. O, ABŞ və İsrailin həyata keçirdiyi hava zərbələri zamanı ölüb. "Bəsic" qüvvələri İran daxilində əsasən daxili təhlükəsizlik, etirazların yatırılması və ideoloji nəzarət funksiyalarını yerinə yetirən struktur kimi tanınır. Süleymani son illərdə bu qüvvələrin rəhbəri kimi ölkədaxili proseslərdə mühüm rol oynayıb.




**Müctəba Xamenei: Layiqli cavab veriləcək**

İranin yeni Ali Rəhbəri Müctəba Xamenei isə ölkədəki hərbi gərginliyi azaltmaq məqsədilə ABŞ-dan gələn atəşkəs təklifini qəti şəkildə geri çevirib. "Reuters" agentliyinin iki vasitəçi tərəfindən ötürülən məlumata istinadən yaydığı xəbərə görə, Tehran Vaşinqtonun münaqişəni dayandırmaq cəhdlərinə "yox" cavabını verib. Mənbələr bildirir ki, Müctəba Xameneinin vəzifəyə gəldikdən sonra keçirdiyi ilk yüksək səviyyəli hərbi müşavirədə ABŞ və İsrailə qarşı qisas məsələsində mövqeyi çox sərt və ciddi olub. Yeni lider diplomatik yollarla gərginliyi azaltmaq əvəzinə, atasına qarşı həyata keçirilən sui-qəsdə və ölkənin hərbi infrastrukturuna vurulan zərbələrə görə "layiqli cavab" verilməsinin tərəfdarı olduğunu nümayiş etdirib. Agentlik yazır ki, Müctəbanın bu qətiyyətli imtinası regionda hərbi əməliyyatların daha da genişlənəcəyindən və İranın yaxın günlərdə yeni raket zərbələri endirə biləcəyindən xəbər verir.

**Təl-Əvivə raket zərbələri**

İran eyni vaxtda bir neçə istiqamətdə raket hücumları təşkil edib. Buraxılan kaset başlıqlı raketlər İsrailin Təl-Əviv şəhərində irimiqyaslı dağıntılara səbəb olub. Şəhərdə bir çox infrastruktur obyektləri zədələnib və ya sıradan çıxıb. Yaşayış binalarının bir hissəsi alov içində qalıb, avtomobillər yanıb, şəhərin müxtəlif nöqtələrində dağıntılar müşahidə olunub. Şahidlərin sözlərinə görə, raketlər havada parçalanaraq onlarla döyüş elementinə bölünüb və geniş ərazini eyni anda vurub. Bu isə şəhərdə "alov yağışı" effekti yaradıb. Raket zərbələri nəticəsində İsrail paytaxtında dəmriyol stansiyası dağılıb. Dağıntıların görüntülərini İsrailin dövlət televiziyası Kan yayıb. Televiziyanın məlumatına görə, qatar stansiyasının ərazisində "ciddi ziyan" var. Kan stansiyanın və qatarlardan birinin dağıdılmasını göstərən fotoşəkil dərc edib. Bundan əlavə, Kan bildirir ki, Təl-Əviv yaxınlığındakı bir neçə başqa əraziyə düşən raket qalıqları nəticəsində ciddi ziyan qeydə alınıb.

Eyni zamanda, İran Dubaya doğru da ardıcıl ballistik raket hücumları həyata keçirib. Şəhərin səmasında onlarla alov topu və hava hücumundan müdafiə sistemlərinin partlayışları müşahidə olunub.

**"Buşəhr" həyəcanı - MAQATE müraciət etdi**

İranın Buşəhrdəki nüvə elektrik stansiyasına endirilən zərbə barədə MAQATE məlumatlandırılıb. Məlumat MAQATE-nin "X" hesabında açıqlanıb: "İran çərşənbə axşamı Buşəhr nüvə elektrik stansiyası ərazisinə mərmi düşdüyünü MAQATE-yə bildirib. Stansiyaya dəyən ziyan və ya personal arasında itki barədə heç bir məlumat verilməyib. Baş direktor Rafael Qrossi nüvə qəzası riskinin qarşısını almaq üçün münaqişə zamanı maksimum təmkinli olmağa çağırışını təkrarlayır".

**"Xürrəmşəhr" ballistik raket bunkeri məhv edildi**

ABŞ ordusu isə Hörmüz boğazı yaxınlığındakı İran raket bazalarına qarşı bir neçə dəfə ağır mərmilərlə zərbələr endirib. ABŞ Mərkəzi Komandanlığının açıqlamasına istinadən xəbər verir ki, məqsəd İranın Hörmüz boğazından keçən gəmilərə zərbələr endirmək imkanlarını məhv etməkdir: " ABŞ qüvvələri Hörmüz boğazı yaxınlığındakı İran sahillərində möhkəmləndirilmiş İran raket bazalarına qarşı çoxsaylı 5000 funtluq yüksək nüfuzetmə qabiliyyətli mərmilərlə uğurlu zərbələr endiriblər".

Məlumata görə, yeraltı anbarda saxlanılan 200-dən çox "Xürrəmşəhr" ballistik raketi bunker dağıdan bombalarla məhv edilib. ABŞ ordusunun məlumatına görə, bölgədəki İran raketləri beynəlxalq gəmiçilik üçün təhlükə yaradır.

**Əraqçi atəşkəsin şərtini açıqladı...**

İranın xarici işlər naziri Abbas Əraqçi "Əl-Cəzirə" telekanalına verdiyi müsahibədə Əli Laricaninin öldürülməsini şərh edib. O, baş verənlərin İran hakimiyyətinin sabitliyinə təsir etməyəcəyini bildirib. Onun sözlərinə görə, ABŞ və İsrail İslam Respublikasının dayanıqlı institutlara söykənən güclü bir siyasi sistemə malik olduğunu "hələ də dərk etməyiblər".

Əraqçi vurğulayıb ki, ayrı-ayrı şəxslərin rolu həlledici deyil: "Hər hansı bir şəxsin varlığı və ya yoxluğu bu struktura təsir göstərmir". Nazir qeyd edib ki, şəxsiyyətlər önəmli olsa da, əsas amil sistemin özünün möhkəmliyidir.

Əraqçi atəşkəs məsələsinə də münasibət bildirib. O deyib ki, İran vasitəçilərin müharibəyə son qoymaq üçün təkliflərini dinləməyə hazırdır. Əraqçi əlavə edib ki, Tehran öz mövqeyini "dostlarına" çatdırıb: "Tehran vasitəçilərin müharibəyə son qoymaq üçün təkliflərinə İranın zərərlərinə görə kompensasiya ödənilməsini nəzərdə tutarsa, onları dinləməyə hazırdır. Bizimlə dost olan bir çox ölkələr təkliflər irəli sürüblər və sülhün əldə edilməsində rol oynamağa hazır olduqlarını bildiriblər. Şərtlərimizə müsbət cavab verilcəyi təqdirdə və İranın çəkdiyi zərər ödənilərsə, biz bu təklifləri dinləməyə hazırıq."

O qeyd edib ki, hazırkı şəraitdə və şərtlərlə İran atəşkəslə razı deyil.

**Qalibaf hədəfdə**

Bu arada İran parlamentinin sədri Məhəmməd Baqer Qalibaf da hədəfə alınıb. Yayılan məlumatlara görə, İran parlamentinin sədri Məhəmməd Baqer Qalibaf Tehrandakı Zəfərəniyə rayonunda sui-qəsd cəhdinin hədəfi olub.

**Ər-Riyada hücum olub...**

Səudiyyə Ərəbistanı Ər-Riyad bölgəsi üzərində bir PUA-nın məhv edildiyini açıqlayıb. Ölkənin Müdafiə Nazirliyi də Şərqiyyə əyalətində bir dronun tutulduğunu bildirib. "X"də dərc olunan açıqlamada deyilir: "Ər-Riyad bölgəsində bir dronun tutulması və məhv edilməsi."

Nazirlik həmçinin Səudiyyə Ərəbistanı paytaxtındakı diplomatik korpusun binasına yaxınlaşan iki dronun zərərsizləşdirildiyini də vurğulayıb.

**Laricanini kim əvəz edəcək?**

İran Milli Təhlükəsizlik Şurasının katibi Əli Laricaninin öldürülməsindən sonra bu posta əsas namizədin adı açıqlanıb. Məlumata görə, strateji vəzifəni hökumətdəki "sərt xətt" tərəfdarlarının nümayəndəsi, hazırda Məsləhət Şurasının üzvü olan Səid Cəlili tuta bilər. Səid Cəlili 2007-2013-cü illərdə bu vəzifədə çalışıb. Həmin dövrdə Cəlili həm də İranın nüvə proqramı üzrə əsas danışıqlar üzrə nümayəndəsi statusunu daşıyıb. Ekspertlər onun mümkün təyinatını Tehranın xarici siyasətdə daha radikal mövqe sərgiləyəcəyinin göstəricisi kimi qiymətləndirirlər.

**Beyrut atəşə tutuldu**

İsrail Müdafiə Ordusu (İDF) Livanın paytaxtı Beyrutun mərkəzinə çox yaxın məsafədə yerləşən Başura məhəlləsində bütöv bir binanı tamamilə dağıdıb. Qeyd edək ki, sözügedən rayon ötən həftə də atəşə tutulmuşdu. Zərbədən öncə İDF sosial şəbəkələrdə xəbərdarlıq yayaraq konkret binanı nişan göstərib və həmin obyekti "Hizbullah"ın infrastrukturu adlandırıb.

**Hörmüz açıla bilər...**

İran tərəfi isə Hörmüzlə bağlı mövqeyini növbəti dəfə ortaya qoyub. Bildirilib ki, Hörmüz boğazı yalnız atəşkəs əldə olunduqdan və Tehranın irəli sürdüyü şərtlər yerinə yetirildikdən sonra naviqasiya üçün açıla bilər. "Financial Times" nəşrinin yazdığına görə, boğazın hərbi yolla blokadadan çıxarılması coğrafi şəraitə görə həddindən artıq mürəkkəbdir. Belə ki, İran tərəfi demək olar ki, heç bir xəbərdarlıq etmədən gəmilərə zərbə endirmək imkanına malikdir. Ticarət gəmilərinin hərbi müşayiəti variantı nəzərdən keçirilsə də, Beynəlxalq Dəniz Təşkilatının rəhbəri Arsenio Dominqes bunun riski tam aradan qaldırmadığını, sadəcə azaltdığını bildirib. O, həmçinin blokadada qalan gəmilərdə su, yanacaq və ərzaq qıtlığı kimi humanitar fəsadların yarana biləcəyi barədə xəbərdarlıq edib.

**Əbu Labda öldürüldü...**

İsrail Müdafiə Qüvvələri (İMQ) HƏMAS-ın təchizat və logistika şöbəsinin komandiri Yəhya Əbu Labdanı öldürdüyünü açıqlayıb. Bəyanatda deyilir: "İMQ HƏMAS-ın hərbi qanadı üçün hərbi texnika və silahların tədarükü və daşınmasından məsul olan HƏMAS-ın təchizat və logistika şöbəsinin komandiri Yəhya Əbu Labdanı öldürdü".

İsrail ordusunun məlumatına görə, "Əbu Labda raket istehsalı üçün onlarla ton xammal çatdırıb" və həmçinin qruplaşmanın istehsal imkanlarını inkişaf etdirmək üçün qabaqcıl elektron komponentlər almasını təmin edib.

*P.İSMAYILOV*

# Pakistan Əfqanıstanın hücumlarına cavab verir...

Pakistan ilə Əfqanıstan arasındakı gərginlik artmaqdadır. Xatırladaq ki, rəsmi İslamabad hələ ötən il Əfqanıstan hakimiyyətinə silahlı islamçı qrup "Təhriki-e-Taliban Pakistan"a (TTP) qarşı tədbir görməsini tələb etmişdi. Oktyabrda isə Əfqanıstan qüvvələri sərhəd-keçid məntəqələrində Pakistan qoşunlarına atəş açmışdı. Buna cavab olaraq Pakistan ordusu ağır artilleriya zərbələri, tanklar, dronlar və qırıcı təyyarələrlə cavab vermişdi. Həmin vaxt toqquşmalar 2025-ci ilin oktyabr ayının sonuna qədər davam etdi və tərəflər Qətər ilə Türkiyənin vasitəçiliyi ilə atəşkəs barədə razılığa gəldilər. Lakin sonrakı danışıqlarda sülh razılaşması əldə olunmadı. Əfqanıstanın daha da intensivləşən hücumları, basqınları vəziyyəti daha da gərginləşdirdi. Bu ilin fevralın sonunda isə Pakistan müharibənin artıq açıq hal aldığını bildirdi - artıq silahlı qrupların zərərsizləşdirilməsinə başlanıldı.




**Pakistan bəyan etdi: yalnız hərbi obyektlər...**

Qeyd edək ki, silahlı birləşmələrin zərərsizləşdirilməsi davam edir. Yayılan məlumatlara görə, Əfqanıstanın Qəndəhar, Paktiya və Paktika əyalətlərinə məlum hədəflərə hava zərbələri endirilib. Pakistanın Təhlükəsizlik Xidməti də martın 13-nə keçən gecə Əfqanıstana zərbələrin endirildiyini təsdiqləyib. Bildirilib ki, hücumların hədəfi Əfqanıstan "Taliban"ı ilə sıx əlaqədə olan "Tehrik-e Taliban Pakistan" (TTP) silahlı qruplaşmasının ("Pakistan talibləri" kimi də tanınır) üzvləri olub. Əfqanıstan tərəfi Pakistanı sıx məskunlaşmış kəndləri atəşə tutmaqda ittiham etsə də, Pakistan tərəfi bunu təkzib edib. Bildirilib ki, Pakistan yalnız hərbi obyektləri zərərsizləşdirib.

**"Razılaşdırılacaq bir şey yoxdur"**

Bir çox siyasi ekspertlər Pakistanın "Tehrik-e Taliban Pakistan"ı tamamilə zərərsizləşdirmək istədiyini bildirir. Pakistanın Baş nazirinin nümayəndəsi Müşərrəf Zaidi hələ fevralın sonunda danışıqlar və dialoqun mümkün olmayacağını bildirmişdi. "Razılaşdırılacaq bir şey yoxdur. Əfqanıstandan terror sona çatmalıdır".

Amma rəsmi Kabil "Pakistan talibləri" ilə əlaqələri kəsməyi planlaşdırmır.

**"Siyah-Sang" hərbi sektoru vurulub**

Qeyd edək ki, Pakistan Hərbi Hava Qüvvələri "Taliban" hərəkatının Qəndəhardakı kəşfiyyat idarəsinin binasına qarşı da genişmiqyaslı hava əməliyyatı keçirib. Hücum anında binada xüsusi xidmət orqanlarının yüksək rütbəli rəhbərliyinin gizli iclası keçirilirmiş və nəticədə iştirakçıların demək olar ki, hamısı məhv edilib. Pakistan aviasiyasının endirdiyi dəqiq zərbələr nəticəsində "Taliban"ın kəşfiyyat elitasına ağır zərbə vurulub. Məxfi toplantının hədəf alınması əməliyyatın öncədən planlaşdırılmış kəşfiyyat məlumatları əsasında həyata keçirildiyini göstərir.

Pakistan Hərbi Hava Qüvvələri son bir neçə gündə Əfqanıstanın paytaxtı Kabildə də bəzi obyektlərə zərbə endirib. Zərbə əsasən şəhərin mərkəzini əhatə edib. Hadisədən sonra paytaxtın həmin hissəsində güclü yanğın baş verdiyi qeyd olunur. Məlumata görə, zərbə Kabildə yerləşən "Siyah-Sang" hərbi sektorunu əhatə edib. Hadisə ilə bağlı rəsmi qurumlar tərəfindən ətraflı açıqlama verilməyib.

**Terrorçular zərərsizləşdirilir...**

Əfqanıstan xəbər agentliyi TOLOnews-un Əfqanıstan hökumətinin sözçü müavini Həmdullah Fitrata istinadən verdiyi məlumata görə, Pakistanın Əfqanıstanın paytaxtı Kabilə endirdiyi hava hücumu nəticəsində ölənlərin sayı 400-ə çatıb. O, ən azı 250 nəfərin yaralandığını iddia edib. Əfqanıstandakı hücumlarla bağlı mövqeyini açıqlayan Pakistan tərəfi isə bu iddianı təkzib edib. Pakistanın informasiya naziri Attaullah Tarar hədəflərin Taliban hərbi obyektləri olduğunu vurğulayıb. Attaullah Tarar 17 martda "X" mikrobloqunda bildirib ki, "Saleh Qəzəb" adlandırılan əməliyyatın hədəfi Taliban hərbi obyektləri olub. Paylaşımda Kabildə iki yerdə sursat anbarlarının və texniki dəstək infrastrukturunun məhv edildiyi vurğulanır. Pakistanlı nazir qeyd edib ki, "zərbələrdən sonra görünən ikinci dərəcəli partlayışlar böyük sursat anbarlarının mövcudluğunu açıq şəkildə göstərir".

Qeyd edək ki, Taliban bir müddət əvvəl əsassız şəkildə Pakistanı Kabildəki bir klinikaya hücumda günahlandırmışdı.

Əfqanıstanın şərqində yerləşən Nəngərhar əyalətində Pakistan qüvvələrinin 4 Taliban hərbi obyektinə hücum etdiyi, əlaqəli texniki və logistika infrastrukturunu, eləcə də sursatı məhv etdiyi də bildirilir. "Taliban rejiminin təbliğatçılarının yalan iddiaları əfqanları və dünyanı aldada bilməyəcək və onların bölgədə terrorizmi dəstəkləmək və maliyyələşdirmək kimi çirkin hərəkətlərini gizlədə bilməyəcək", -deyə nazir Tarar bildirib.

**Əsl səbəb-Durand xətti...**

Bir çox siyasi ekspert münaqişənin mənbəyinin tarixə söykəndiyi fikrindədir. Əfqanıstanın Pakistana hücumunun Durand xətti ilə bağlı olduğu deyilir. Belə ki, Durand xətti 1893-cü ildə Britaniya Hindistanı ilə Əfqanıstan arasında çəkilmiş sərhəd xəttidir. Bu xətt bu gün Pakistan ilə Əfqanıstan arasındakı rəsmi sərhəd sayılır - amma Əfqanıstan bunu tam olaraq qəbul etmir. 1893-cü ildə Britaniya Hindistanını təmsil edən Mortimer Durand ilə Əfqanıstan əmiri Abdur Rahman Xan arasında imzalanan razılaşmanın məqsədi Britaniya Hindistanı ilə Əfqanıstan arasında təsir zonalarını müəyyən etmək idi. Xətt bir çox puştun tayfalarını iki yerə böldü. Əfqanıstanın bugünki iddiasına görə, razılaşma Britaniya ilə bağlanıb - bu mənada, Pakistanla sərhəd məsələsi yenidən müzakirə olunmalıdır. Hətta Əfqanıstan parlamenti vaxtilə bu müqaviləni etibarsız saydığını bəyan etmişdi.

Pakistan isə haqlı olaraq bildirir ki, beynəlxalq hüquqa görə mövcud sərhədlər varis dövlət tərəfindən qəbul edilir. Ona görə də Durand xətti rəsmi və beynəlxalq tanınmış sərhəddir. Xətt təxminən 2,6 km-dir və puştunların yaşadığı əraziləri iki yerə bölür. Pakistan sərhəd boyunca hasar çəkib. Taliban hakimiyyətə gəldikdən sonra isə sərhəd məsələsi yenidən gərginləşib.

***P.İSMAYILOV***

# "Ərəb NATO-su" yaranır?

## Ümumərəb hərbi kontingentinin yaradılması ideyası irəli sürülür

Regional təhlükəsizlik amili bu gün ön plana çıxmaqdadır. Davam edən bir sıra kataklizmlər fonunda bu məsələ bütün regionlar üçün keçərlidir. Məsələn, Avropanın təhlükəsizliyinə NATO-nun cavabdeh olması amili "köhnə qitə" üçün olduqca mühüm bir üstünlük qazandırır. Kollektiv müdafiə prinsipləri bu immuniteti daha da artırır. Yeri gəlmişkən, Azərbaycan da hər zaman regional təhlükəsizlik məsələsini bir nömrəli məsələ kimi görüb. Məhz bunun nəticəsidir ki, Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının müdafiə strtukturunun formalaşdırılması ilə bağlı təkliflər səsləndirir. Yeni qlobal nizaimda iqtisadi sabitliyin qorunması, ticari imkanların genişləndirilməsi, funksional proseslərin davamlı hal alması alması üçün təhlükəsizlik indeksi yüksək səviyyədə olmalıdır. Görünən budur ki, artıq başqa bölgələr də kollektiv təhlükəsizlik amilini prioritet xətt olaraq qəbul edir.

### Birləşmiş müdafiə sistemi...

Belə ki, Ərəb Dövlətləri Liqası (ƏDL) İranın Fars körfəzi ölkələrinə zərbələri fonunda ümumərəb hərbi kontingentinin yaradılması ideyasını araşdırır. Məlumatı təşkilatın baş katibinin müavini Hüssam Zəki Misirin "Ash-Shorouq" portalına açıqlayıb: "Bu təşəbbüs bu yaxınlarda Misirdə yenidən ortaya çıxıb, çünki ilk dəfə 2015-ci ildə ümumərəb qüvvələrinin yaradılmasını təklif edən Misir prezidenti Əbdülfəttah əs-Sisi olub. ƏDL olaraq biz bu məsələni araşdırırıq və növbəti iclasda yenidən müzakirəyə çıxarmağa hazırıq".

Təşkilat rəsmisi qeyd edib ki, İranın ƏDL ölkələrinə davam edən zərbələri ərəb dövlətlərini birgə silahlı qüvvələrin yaradılmasını müzakirə etməyə sövq edib: "Hər bir ərəb dövlətinin təcavüzə uyğun hesab etdiyi və lazımi vaxtda cavab vermək üçün qanuni hüququ var və ƏDL bu hüququ tam dəstəkləyir".

Martın 15-də Misir xarici işlər naziri Bədr Əbdül Ata Əmirlik həmkarı Abdullah bin Zayed Əl Nəhyan ilə görüşündə İranın Fars körfəzindəki ərəb dövlətlərinə hücumlarının "müdafiəolunmaz" olduğunu bildirib. O, həmçinin BƏƏ-dəki həmkarına "bütün ərəb ölkələri üçün kollektiv təhlükəsizlik konsepsiyasını birgə hazırlamağı" təklif edib, lakin bunun nəyi nəzərdə tutduğunu dəqiqləşdirməyib.



Ərəb Dövlətləri Liqası Misir, İraq, İordaniya, Livan, Səudiyyə Ərəbistanı, Suriya və Yəmən tərəfindən 22 mart 1945-ci ildə yaradılıb. Hazırda 22 üzvü olan bu nüfuzlu regional təşkilatın əsas məqsədi üzv dövlətlər arasında siyasi, iqtisadi, mədəni və sosial əməkdaşlığı gücləndirmək, ərəb dünyasının ortaq maraqlarını müdafiə etmək və regional sabitliyə töhfə verməkdir. Liqa çərçivəsində müxtəlif sahələr üzrə şuralar və komitələr fəaliyyət göstərir ki, bu da üzv dövlətlər arasında koordinasiyalı siyasətin formalaşdırılmasına imkan yaradır.

Qeyd edək ki, ƏDL-in sturukturuna aşağıdakı orqanlar daxildir:

- ƏDL Şurası
- Komitələr
- Baş Katiblik
- İnstitutlar və təşkilatlar
- İqtisadi məsələlər üzrə Şura
- Birləşmiş müdafiə Şurası
- Daimi hərbi komissiya.

Göründüyü kimi, birgə müdafiə sistemi şura şəklində fəaliyyət göstərir.

### Ərəb liqasının hərbi "ayağı"...

Qeyd edək ki, 1950-ci ildə Liqa üzvləri Qarşılıqlı Müdafiə və İqtisadi Əməkdaşlıq haqqında Müqavilə imzalayıb. Bu müqavilə bir və ya daha çox üzv ölkəyə silahlı hücumu hamıya hücum kimi nəzərdən keçirən fundamental sənəddir. Bundan başqa, Körfəz Əməkdaşlıq Şurası (KƏŞ) daxilində "Yarımada Qalxanı" birgə qüvvələri formalaşdırır. Bunun fonunda əməkdaşlıq prinsipləri yalnız sənəddə öz əksini tapır - real olaraq əməkdaşlıq tez-tez ərəb ölkələri arasındakı siyasi fikir ayrılıqları səbəbi ilə mümkün olmur. Paralel olaraq bir çox ərəb dövləti ABŞ və ya digər Qərb gücləri ilə ikitərəfli müdafiə müqavilələrinə üstünlük verirlər. Qeyd edək ki, hələ 29 mart 2015-ci ildə Liqanın 26-cı sessiyasında təşkilata üzv dövlətlərin dövlət başçıları təhlükəsizlik təhdidlərinə qarşı birgə mübarizə aparmaq üçün vahid regional silahlı qüvvələr yaratmaq barədə razılığa gəlmişdilər. 2021-ci ilin dekabrında isə Körfəzin ərəb ölkələri - Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Oman, Küveyt və Bəhreyn liderlərinin sammiti çərçivəsində imzalanan Birgə Bəyannamədə vahid müdafiə və təhlükəsizlik sisteminin yaradılması məsələsi öz əksini tapmışdı. Sənəddə qeyd olunurdu ki, Yaxın Şərqdə silahlı münaqişələrin qarşısının alınması, problemlərin həlli istiqamətində əməkdaşlıq da möhkəmlənəcək. Bəyannamədə deyilirdi ki, Körfəzin ərəb ölkələrinin hər hansı birinə qarşı hərbi təcavüz bütün digər üzv ölkələrə olan hücum kimi qiymətləndiriləcək.



Ərəb Liqasına daxil olan ölkələr arasında hərbi güc baxımından bir neçə dövlət xüsusilə seçilir. Bu ölkələr həm ordu sayı, həm silahlanma səviyyəsi, həm də hərbi büdcə baxımından regionun əsas hərbi gücləri hesab olunur. Təsnifatlandırılan zaman Ərəb Liqası ölkələrinin ordu modelləri 3 istiqamət üzrə müəyyənləşir:

- Əhali əsaslı böyük ordular ( burada Misir, İraq, Əlcəzair dövlətləri daha çox ön plana çıxır)
- Maliyyə və texnologiya əsaslı ordular (burada Səudiyyə Ərəbistanı, BƏƏ və Qətər önə çıxır)
- Regional müdafiə orduları (burada Mərakeş, İordaniya, Tunis önə çıxır)

### Ən böyük ordular...

Global Firepower (GFP) 2025 reytinqinə görə, Misir, Səudiyyə Ərəbistanı və Əlcəzair ən yüksək hərbi gücə malik ərəb ölkələridir. Misir regionda birinci (qlobal miqyasda 19-cu), Səudiyyə Ərəbistanı ikinci (20+), Əlcəzair isə üçüncü (qlobal miqyasda 26-cı) yerdədir. İraq (qlobal miqyasda 43-cü) və BƏƏ də ilk sıralarda yer alır.

Misir ordusu ərəb dünyası ilə yanaşı Afrika qitəsində ən güclü ordu hesab olunur. Ordunun təxminən 440 min - 450 min aktiv xidmət personalı və ümumilikdə 1,2 milyondan çox şəxsi heyəti var. Əsas qüvvələr quru qüvvələri, aviasiya və hava hücumundan müdafiədən ibarətdir. Ordu müxtəlif təchizatçılardan (ABŞ, Rusiya, Fransa) silah alaraq aktiv şəkildə modernləşdirilir. Misirin hərbi xərclər 2023-cü ildə 3167,20 milyon dollar olub. 2024-cü ildə isə bu rəqəm 2396,20 milyon dollara düşüb. 2025-ci ildə rəqəmin 5 milyardı ötdüyü bildirilir.

### Kim nə qədər pul xərcləyir?

Səudiyyə Ərəbistanının isə ərəb dünyasının ən genişmiqyaslı hərbi büdcəsinə malik ölkəsidir. 2025-cı ildə hərbi büdcə təxminən 78 milyard dollar təşkil edib.

BƏƏ-nin 2025-ci il üçün müdafiə büdcəsi güclü artım nümayiş etdirib. Müdafiə xərcləri 2025-ci ildə təxminən 24 milyard ABŞ dollarına yaxın olub. bu da geniş hərbi modernləşdirmə ilə bağlıdır. Qətərin 2025-ci ildəki hərbi büdcəsi 9,4 milyard dollar olub.

Digər dövlətlərə nəzər salsaq, İraqda təxminən bu rəqəm 6 milyard dollar, İordaniyada 2,6 milyard dollar, Livanda 1 milyard dollardan azdır. Hərbi məsələləri araşdıran ixtisaslaşmış tədqiqat mərkəzləri ərəb ölkələrinin 2025-ci ildəki ümumi hərbi xərclərini 165 milyard dollar olaraq qiymətləndirirlər.

***P.İSMAYILOV***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






## Ramazan ayı 29-cu günün duası

**“Allahummə ğəşşini fihi bir-rəhməh. Vərzuqni fihit-tovfiqə vəl-isməh. Və təhhir qəlbi min ğəyabihit-tuhməh. Ya rəhimən bi-ibadihil-mu-minin”.**

**Tərcüməsi:**

**“İlahi, bu gün məni öz sonsuz rəhmətinlə əhatə et! Bu gün mənə qüvvət və ismət nəsib et! Ürəyimi töhmətçilik qaranlığından təmizlə! Ey mömin bəndələrinə rəhmli olan Allah!”**

# Unudulmayan faciə...



## Bakı metrosundakı terrordan 32 il ötür!

*Yeganə BAYRAMOVA*

1990-cı illərin əvvəlləri Azərbaycan üçün yalnız siyasi deyil, həm də təhlükəsizlik baxımından son dərəcə gərgin və faciələrlə dolu bir dövr idi. Çoxsaylı sakinlər-qadınlar, uşaqlar və qocalar ermənilərin təşkil etdiyi bu qanlı terrorlar zamanı həyatlarını itiriblər. Bu hadisələrin hər biri isə tariximizin qanlı səhifələridir. 1990-cı illərdə Azərbaycanda daxildə baş verən qarışıqlıqlar həmçinin, Ermənistanın təcavüzkar hücumları ölkəni zəifləmişdi. Vətənimizi hədəf alan düşmən qüvvələri müxtəlif tərəflərdən hücumlar təşkil etməyə başlamışdılar.

Onlardan biri də 1994-cü ilin 19 martında oldu. Bu gün Ermənistan xüsusi xidmət orqanlarının Bakı Metropolitenində törətdiyi terror aktından 32 il ötür. Saat 13:00 radələrində Bakı metrosunun “20 Yanvar” stansiyasında baş vaqona qoyulmuş saat mexanizmli əldə düzəltmə bomba qatar stansiyada dayananda işə düşüb. Həmin hadisə zamanı 14 nəfər həlak olub, 49 nəfər yaralanıb. Həlak olanlar arasında Azərbaycanın Xalq artisti Rafiq Babayev də olub.

**Terrorun izi haradan gəlirdi?**

İstintaq və məhkəmə yolu ilə sübut edilib ki, terror aksiyası Ermənistan xüsusi xidmət orqanları tərəfindən hazırlanıb. Hadisə Qarabağ uğrunda gedən döyüşlər zamanı-13 yanvar 1994-cü ildə əsir düşmüş və Ermənistan xüsusi xidmət orqanları tərəfindən əməkdaşlığa cəlb edilmiş Aslanov Azər Salman oğlu tərəfindən törədilib.

Məhkəmə araşdırmaları zamanı müəyyən olunmuşdu ki, 14 yanvar 1994-cü ildə Zori Balayan hərbi əsir Azər Aslanovla görüşüb, azərbaycanlılara qarşı mübarizədə bütün azsaylı xalqların birgə fəaliyyət göstərmələrinin vacibliyini bildirib. 9 iyun 1994-cü ildə Ermənistan xüsusi xidmət orqanlarının Artur adlı əməkdaşı A.Aslanovun Bakıdakı mənzilinə zəng vuraraq onun sağ olduğunu bildirib və azad olunması üçün yaxın qohumlarından birinin Yerevan şəhərinə gəlməsinin zəruriliyini qeyd edib. 16 iyun 1994-cü il tarixində A.Aslanovun anası Tacibat Aslanova Yerevana gedir. Azər Aslanova anasının həyatının təhlükə altında olduğu bildirilir. Bu təhdidlər altında o, Ermənistan xüsusi xidmət orqanları ilə “Ömər-75” təxəllüsü ilə daimi əməkdaşlığa cəlb edilir.

Azərbaycana maneəsiz gəlməsi üçün Azər Aslanovun adına saxta sənədlər hazırlanır, partlayıcı maddə isə müvafiq qaydada peçenye, şokolad və dezodarant qutularında gizlədilir. A.Aslanov “Yerevan-Mineralnıye Vodı-Bakı”marşrutu ilə Azərbaycana gələrək, 3 iyul 1994-cü ildə Bakı metrosunun “28 May” və “Gənclik” stansiyası arasında qatarda terror aktını həyata keçirib və yenidən Ermənistana qayıdıb.

İstintaq zamanı müəyyən edilmişdi ki, terror aktının təlimatçıları Ermənistan xüsusi xidmət orqanlarının polkovniki Karen Baqdasaryan və kapitan Seyran Sarkisyan olub. Azərbaycan Respublikasının Ali Məhkəmə instansiyaları tərəfindən aparılmış araşdırmalar prosesində göstərilən terror aktlarının həyata keçirilməsində Qarabağın qeyri-qanuni rejiminin funksionerləri və Ermənistanın xüsusi xidmət orqanlarının təşkilatçılığı, maliyyə və texniki dəstəyi, əksər hallarda isə bilavasitə iştirakı prosessual qaydada sübuta yetirilib.

Bununla da Moskvada Azərbaycan vətəndaşı Azər Aslanov həbs edilir. 1997-ci ilin 29 noyabr tarixində onu Azərbaycana göndərirlər. 1998-ci ildə Aslanov bu terror aktını keçirmək göstərişini erməni əsirliyində olarkən, publisist Zori Balayandan aldığını deyir. Beləliklə, Azər Aslanova ömürlük həbs cəzası verilir.

Aslanovun ifadələri əsasında, məhkəmənin göstərişi ilə Zori Balayana qarşı cinayət işi açılır, 1999-cu ildə Azərbaycan Respublikasının Baş Prokurorluğunun təqdimatı əsasında Balayan haqqında İnterpolun xətti ilə beynəlxalq axtarış elan edilir. Daha sonra o, MDB dövlətlərində də, beynəlxalq axtarışa verilir.

Qeyd edək ki, 1994-cü ilin 3 iyulunda da Bakı metrosunun “28 May” və “Gənclik” stansiyaları arasında qatarda partlayış törədilib. Həmin hadisədə 13 nəfər həlak olub, 42 nəfər yaralanıb. Azərbaycanın hüquq-mühafizə orqanları bu hadisəni də Ermənistanın xüsusi xidmət orqanlarının təşkil etdiyini müəyyənləşdirib.

# Məsuliyyətli missiya

## Miqrasiya işçilərinin bayramıdır

*Yeganə BAYRAMOVA*




Qloballaşan dünyada miqrasiya axınlarının artdığı bir dövrdə bu sahənin əhəmiyyəti getdikcə aktuallaşır. Müxtəlif səbəblərlə ölkəyə gələn insanların hamısı ilk olaraq miqrasiya sistemindən keçir. Bu isə o deməkdir ki, miqrasiya əməkdaşları dövlətin simasını təmsil edən ilk şəxslərdən biridir.

Martın 19-u Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaranmasının 16-cı ildönümü və miqrasiya orqanları işçilərinin peşə bayramı günüdür. Hər il Azərbaycanda qeyd olunan bu peşə bayramı ölkənin təhlükəsizliyi, demoqrafik balansı və hüquqi nizamının qorunmasında mühüm rol oynayan insanların əməyinə verilən dəyərin ifadəsidir. Bu sahədə çalışanların fəaliyyəti hər bir vətəndaşın həyatına birbaşa təsir edir.

Miqrasiya işçiləri yalnız ölkəyə giriş-çıxışı tənzimləyən qurum nümayəndələri deyil. Onlar həm də insan taleləri ilə işləyən, hüquqi çərçivədə qərarlar verən, bəzən çətin seçimlərlə üz-üzə qalan peşə sahibləridir. Xaricdən gələnlərin qeydiyyatı, icazələrin verilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması - bütün bu proseslər onların gündəlik işinin bir hissəsidir.

Bu sahədə çalışanlar ölkənin milli təhlükəsizliyinin təmin olunmasında da mühüm rol oynayır. Onlar yalnız sənədlərlə deyil, həm də risklərin düzgün qiymətləndirilməsi ilə məşğuldurlar. Qlobal miqrasiya proseslərinin sürətləndiyi bir dövrdə onların işi daha da məsuliyyətli və strateji əhəmiyyət kəsb edir.

Eyni zamanda, miqrasiya işçiləri humanitar missiya da daşıyır. Müxtəlif səbəblərlə ölkəmizə üz tutan insanlar üçün hüquqi dəstək, yönləndirmə və düzgün informasiya təqdim etmək onların əsas vəzifələrindəndir. Bu isə həm də Azərbaycanın beynəlxalq imicinə müsbət təsir göstərir.

# “Azercell” “MWC 2026”da gender inklüzivliyi və sosial təsir təşəbbüslərini təqdim edib




Barselonada keçirilən “Mobile World Congress” (MWC) qlobal rabitə və texnologiya ekosisteminin aparıcı nümayəndələrini bir araya gətirib. Hər il olduğu kimi bu dəfə də konqres sənayenin inkişafına təsir edən əsas mövzuların müzakirəsi, innovativ texnoloji həllərin təqdimatı və beynəlxalq əməkdaşlığın genişləndirilməsi üçün mühüm platforma rolunu oynayıb.

“MWC Barcelona 2026” çərçivəsində keçirilən sessiyalarda inklüziv biznes yanaşmaları və gənclərin rəqəmsal rifahı kimi aktual mövzular diqqət mərkəzində olub.

Konqresdə çıxış edən “Azercell Telekom” MMC-nin İnsan kapitalı üzrə baş direktoru Dilarə Hüseynova texnologiya sektorunda daha inklüziv mühitin formalaşdırılmasının xüsusi əhəmiyyətini vurğulayıb: “Azərbaycanın rəqəmsal transformasiyasında aparıcı rol oynayan şirkət olaraq gender inklüzivliyi bizim strateji prioritetlərimizin əsas istiqamətlərindən biridir”.

D.Hüseynova “Azercell”in yeni nəsil qadın İKT mütəxəssislərinin və texnologiya sektorunda qadın liderlərinin yetişdirilməsinə yönəlmiş təşəbbüsləri barədə geniş məlumat verib. Qeyd olunub ki, şirkət bu istiqamətdə müxtəlif mərhələləri əhatə edən sistemli yanaşma tətbiq edir və qızların texnologiya sahəsinə marağının erkən yaşlardan formalaşdırılmasına xüsusi önəm verir.

D.Hüseynova şirkətin həyata keçirdiyi bir sıra sosial layihələr barədə iştirakçıları məlumatlandıraraq, bu sahədə əldə olunan geniş təcrübəni bölüşüb. “Azercell”in qızlardan ibarət milli komandanın Beynəlxalq İnformatika Olimpiadalarına hazırlığına verdiyi dəstək və “Uğur qızlarımızındır” təşəbbüsü xüsusi maraqla qarşılanıb. Eyni zamanda, qadınların rəqəmsal və biznes bacarıqlarının gücləndirilməsinə yönəlmiş “Qadınlara dəstək” sosial layihəsi çərçivəsində qeyri-hökumət təşkilatları ilə qurulan əməkdaşlıq da iştirakçılar tərəfindən müsbət qiymətləndirilib.

Qeyd edək ki, “Azercell Telekom” MMC Beynəlxalq GSM Assosiasiyasının (GSMA) üzvüdür və təşkilatla müxtəlif istiqamətlərdə əməkdaşlıq edir. Şirkət GSMA və rəqəmsal dövrdə gender bərabərliyinin təşviqinə yönəlmiş EQUALS Gender İnklüzivlik İndeksinin pilot mərhələsində iştirak edərək həyata keçməsinə öz töhfəsini verib. Bu təşəbbüs texnologiya sektorunda inklüzivliyin təşviqinə, sənayedə mövcud stereotiplərlə mübarizəyə və daha inklüziv yanaşmaların formalaşdırılmasına yönəlib.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5106
Sifariş: 381
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova